

Milli azadlıqdan
şirin nemət yoxdur!





# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

26 dekabr 2025-ci il, cümə
№ 237 (7064)
Qiyməti 60 qəpik


## Azərbaycanın ədalət mübarizəsi: güclü iradə, siyasi addımlar...




# Qələbəmiz 30 illik haqsızlığa verilən prinsipial cavabdır




Bax səh. 2

## Dünya üçün unikal nümunə

Bax səh. 2

## Dövlətin növbəti sosial qayğısı

Bax səh. 3

## Azərbaycan-ABŞ münasibətləri üçün yeni imkanlar

Bax səh. 4

## Yeni iqtisadi konfiqurasiya "təxirə düşdü": Aİ - MERCOSUR müqaviləsi niyə reallaşmır?

Bax səh. 5

## Şəhərsalmada Azərbaycan təcrübəsi - qədimliklə müasirliyin vəhdəti



Bax səh. 3

## Azərbaycan - Türkiyə: Enerji əməkdaşlığının yeni səhifəsi yazılır

Bax səh. 4

## Dayanıqlı iqtisadiyyat, sabit məzənnə, birrəqəmli inflyasiya...

Bax səh. 4

## Əlcəzair parlamentindən Fransaya zərbə

Bax səh. 5



## Dondurulmuş milyardlar, sarsılan hüquq: Avropanın öz əliylə qurduğu tələ

Bax səh. 6



## Kiyev prezident seçkilərinə hazırlaşır?

Bax səh. 7

# Azərbaycanın ədalət mübarizəsi: güclü iradə, siyasi addımlar...

## Qələbəmiz 30 illik haqsızlığa verilən prinsipial cavabdır

Yerləşdiyi regionun lider dövləti kimi qəbul edilən Azərbaycan artıq qlobal miqyasda aparıcı siyasi aktor statusu qazanıb. 2020-ci ildə Vətən müharibəsində əldə olunan tarixi Qələbə təkcə ərazi bütövlüyümüzün bərpası ilə nəticələnmədi, eyni zamanda, regionda mövcud olan və illərlə formalaşdırılmış süni, ədalətsiz siyasi reallıqları kökündən dəyişdi. Azərbaycan bu Qələbə ilə həm də beynəlxalq münasibətlər sistemində öz yerini yenidən müəyyənləşdirdi. Uzun illər ərzində erməni işğalına məruz qalan, yüz minlərlə vətəndaşı qaçqın və məcburi köçkün həyatı yaşayan bir dövlət olaraq Azərbaycan beynəlxalq tribunlardan haqq səsini ucaldır, ədalətin bərpasını tələb edirdi. Lakin bu çağırışlar çox zaman ya eşidilmirdi, ya da qəsdən diqqətdən kənarda qalırdı.

30 il ərzində cəmi bir neçə dövlət Azərbaycanın mövqeyini açıq şəkildə müdafiə edib - digər tərəfdən isə bir sıra böyük güclər və beynəlxalq təşkilatlar məsələni ya “status-kvo”nun saxlanılması adı altında dondurmağa çalışır, ya da prosesə selektiv yanaşma nümayiş etdirirdilər. Bu, beynəlxalq hüququn mahiyyətinə, dövlətlərin suverenliyinə və ədalət prinsipinə zidd bir yanaşma idi. Məhz buna görə də Azərbaycan bu gün yaxşı bilir ki, kim həqiqi dostdur, kim isə maraqlar naminə susmağı və ya ikili standartları üstün tutur. Bu reallıq uzaq tarix deyil - bu, yaxın keçmişin acı, lakin dərsverici təcrübəsidir. Prezident İlham Əliyev dekabrın 24-də Ağdam şəhərində 2-ci yaşayış kompleksinin açılışı zamanı oraya köçən sakinlərlə görüşündə bildirib ki, çiz bilirik bizim dostumuz kim olub, düşmənlərimiz kim olub: “Əfsuslar olsun ki, düşmənlərimiz dostlarımızdan bir neçə dəfə çox olub. Amma bu gün bizim güclü iradəmiz, siyasi addımlarımız, Silahlı Qüvvələrimizin güclü olması artıq tamamilə yeni mənzərəni ortaya qoyur”.








**İşğala selektiv yanaşma və beynəlxalq riyakarlıq**

Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalı açıq-aşkar hərbi təcavüz, beynəlxalq hüququn və BMT Nizamnaməsinin kobud şəkildə pozulması idi. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi işğalçı qüvvələrin dərhal və qeyd-şərtsiz Azərbaycan ərazilərindən çıxarılmasını tələb etsə də, bu sənədlər kağız üzərində qaldı. Əslində isə beynəlxalq ictimaiyyətin passivliyi, daha doğrusu, məqsədli fəaliyyətsizliyi işğalın 30 il davam etməsinə zəmin yaratdı. Ən böyük ədalətsizlik isə ondan ibarət idi ki, bu gün başqa regionlarda baş verən münaqişələrə dərhal reaksiya verən, sanksiyalar tətbiq edən, hərbi və iqtisadi təzyiq mexanizmlərini işə salan dövlətlər Azərbaycan məsələsində eyni prinsipiallığı nümayiş etdirmirdilər. Ermənistanın işğalçılıq siyasəti sadəcə “qınanır”, lakin bu qınaqlar real nəticə doğurmurdu. Nə sanksiya tətbiq edilirdi, nə də qətnamələrin icrası üçün mexanizm yaradılırdı. Dövlət başçısı çıxışında vurğulayıb ki, bizim xalqımız böyük fəlakətlə üz-üzə qalmışdı: “Amma bütün belə hallar olduğu vaxtda beynəlxalq təşkilatlar, böyük dövlətlər və müxtəlif ölkələrin siyasi dairələri bu işğalı qınayır, işğalçını məcbur etmək üçün müxtəlif üsullardan istifadə edir, sanksiyalar tətbiq edir. Bunu biz görürük, indi yaxın tariximiz bunu göstərir. Ermənistan-Azərbaycan müharibəsi zamanı və müharibədən sonra atəşkəs dövründə beynəlxalq təşkilatlar düzgün qərar qəbul etsələr də, bu qərarların icrası üçün bir addım belə atmayıblar. Bax, bu təşkilatların, böyük dövlətlərin riyakarlığı, necə deyərlər, özünü burada bariz şəkildə göstərir”.

Bu yanaşma isə beynəlxalq hüququn universallığı prinsipini sual altına qoydu. Əgər hüquq yalnız güclü dövlətlərin maraqlarına uyğun hallarda işləyirsə, bu artıq hüquq deyil, siyasi alətdir. Azərbaycan bu riyakarlığı açıq şəkildə gördü və nəticədə anladı ki, ədalət yalnız sözlə deyil, güclü dövlət iradəsi ilə təmin olunur. Vətən müharibəsində qazanılan Qələbə də məhz bu ədalətsizliyə verilən tarixi cavab oldu.

**Türkiyə və başqa müsəlman dövlətləri Azərbaycanın yanında oldular**

Azərbaycanın haqq mübarizəsində daim yanında olan dövlətlərdən biri və birincisi Türkiyə olub. “Bir millət, iki dövlət” prinsipi təkcə şüar deyil, real siyasi və strateji müttəfiqliyin ifadəsidir. Türkiyə 30 il ərzində Azərbaycanın ərazi bütövlüyünü birmənalı şəkildə dəstəkləyib və bu mövqeyindən bir an belə geri çəkilməyib. Türkiyənin xarici siyasət prioritetlərində Qarabağ məsələsi hər zaman xüsusi yer tutub. Ankara beynəlxalq platformalarda Azərbaycanın mövqeyini müdafiə edib, erməni işğalını açıq şəkildə təcavüz kimi qiymətləndirib. Xüsusilə Vətən müharibəsi dövründə Türkiyənin siyasi, diplomatik və mənəvi dəstəyi Azərbaycan xalqı üçün böyük əhəmiyyət daşıyırdı.

Ölkəmizə dəstək olan dövlətlər sırasında müsləman dövlətlərinin də adlarını çəkməliyik - bu dəstək bizim qələbəmiz üçün də böyük mənəvi simvolizmə malik idi. Prezident bildirib ki, bizim yanımızda olan tək ölkə Türkiyə idi: “Buna görə biz türk qardaşlarımıza minnətdarıq, həm işğal dövründə, həm müharibə dövründə bizə daim siyasi və mənəvi dəstək vermişdir. Müsəlman ölkələri. Onlar İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində bizim təkliflərimizə həmişə müsbət reaksiya verərək, lazım olan qərar və qətnamələri qəbul etmişdilər”.

**Qadağan edilmiş “İsgəndər M” ballistik raketi Ermənistana necə verilib?**

İşğal illərində Ermənistanın hərbi potensialının sürətlə artması ciddi və haqlı suallar doğururdu. İqtisadiyyatı zəif, dövlət büdcəsi əsasən xarici yardımlar hesabına formalaşan bir ölkənin milyardlarla dollar dəyərində silah arsenalına malik olması təsadüfi deyildi. Bu, Ermənistanın arxasında müəyyən dövlətlərin məqsədli şəkildə dayandığını açıq şəkildə göstərirdi. Ermənistana illər ərzində həm maliyyə, həm də silah yardımları edilib. Üstəlik, beynəlxalq müqavilələrlə ixracı qadağan olunan silahların belə bu ölkəyə verilməsi faktları mövcud idi. İkinci Qarabağ müharibəsi zamanı Azərbaycanın şəhər və kəndlərinə atılan ballistik raketlər bunu bir daha sübut etdi. Mülki əhalinin hədəfə alınması, dinc insanların həyatına qəsd edilməsi bu silahların kimlərin razılığı ilə verildiyini açıq sual altına qoydu. Prezident İlham Əliyev deyib ki, bizim həm İkinci Qarabağ müharibəsi, həm antiterror əməliyyatı nəticəsində Ermənistandan qənimət kimi götürdüyümüz və məhv etdiyimiz silahların pul dəyəri təqribən 5-6 milyard dollardır: “Bunların dağılmış bəzi nümunələri Bakıda Hərbi Qənimətlər Parkında nümayiş etdirilir, o cümlədən “İsgəndər M” ballistik raketi, hansı ki, ümumiyyətlə, Ermənistanda olmamalı idi. Çünki “İsgəndər M” raketinin ixracı qadağandır. Əgər belə demək mümkündürsə, ixraca açıq olan “İsgəndər E”, yəni eksport növüdür. “İsgəndər M” raketi necə Şuşaya zərbə endirdi? Elə bu, böyük sualdır”.

**Yeni gələcək qurmaq üçün...**

Bu gün isə Azərbaycan regionda tamamilə yeni siyasi, iqtisadi və hərbi reallıqlar formalaşdırıb. Ölkəmiz artıq proseslərin obyektinə deyil, subyektinə çevrilib. Azərbaycan öz gücünə, xalqının iradəsinə və ordusunun qüdrətinə arxalanaraq tarixi ədaləti bərpa etdi. Bu Qələbə təkcə bir müharibənin nəticəsi deyil, 30 illik haqsızlığa verilən prinsipial cavabdır. Azərbaycanın yaratdığı yeni situasiya bölgədə uzunmüddətli sülh və əməkdaşlıq üçün real imkanlar açır. Dost dövlətlər bu gün də Azərbaycanın yanındadır və bu birlik gələcək çağırışlar qarşısında daha da möhkəmlənir.

*Pərviz SADAYOĞLU*

# Dünya üçün unikal nümunə

## “Böyük Qayıdış” Proqramı uğurla icra edilir

Ölkəmizdə Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın əlamətdar günlərdə, bayramlar ərəfəsində 44 günlük Vətən müharibəsində işğaldan azad olunmuş ərazilərə səfər etmələri, burada yurd yerlərinə qayıdan sakinlərlə görüşəri, yeni açılış və təməlqoyma tədbirlərinə qatılmaları gözəl bir ənənəyə çevrilib. Dövlətimizin başçısı və birinci xanım Prezident İlham Əliyevin növbəti ad günündə - dekabrın 24-də Ağdam şəhərində 2-ci yaşayış kompleksinin açılışında iştirak edib və buraya köçən sakinlərlə görüşüblər.

Qalib Azərbaycan işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı quruculuq-bərpa işləri həyata keçirməklə dünyaya unikal bir nümunə təqdim edir. Prezident İlham Əliyev bəhs olunan görüşdəki çıxışında görülən işlərdən məmnunluğunu bildirərək vurğulayıb ki, “Böyük Qayıdış” Proqramı uğurla icra edilir.

**“Böyük Qayıdış” üzrə strateji çərçivə**








İkinci Qarabağ müharibəsindən əvvəl dövlətimizi və xalqımızı qayğılandıran əsas məsələ işğal faktına son qoyulması və ölkənin ərazi bütövlüyünün təmin edilməsi idi. Rəşadətli Ordumuz 44 günlük Vətən müharibəsində bu missiyanı yüksək səviyyədə həyata keçirdi.

Yeni reallıqlarla səciyyələnən postmüharibə dövründə hədəflərimiz dəyişib. İndiki mərhələdə 44 günlük müharibədə işğaldan azad edilən ərazilərə “Böyük Qayıdış”ın təmin edilməsi Azərbaycanın gündəliyində duran əsas məsələlər sırasında yer alır. Prezident İlham Əliyevin 22 iyul 2022-ci il tarixində imzaladığı müvafiq Sərəncamla təsdiqlənən “Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nda “Böyük Qayıdış” üzrə strateji çərçivə müəyyənləşdirilib.

Eyni zamanda, Azərbaycan Prezidentinin 2025-ci il 30 may tarixli 611 nömrəli Sərəncamı ilə “2027-2030-cu illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nın və “Böyük Qayıdışa dair II Dövlət Proqramı”nın 9 ay müddətində hazırlanması üçün Nazirlər Kabinetinə tapşırıq verilib.

**Bütün ərazilərdə genişmiqyaslı quruculuq-bərpa işləri aparılır**

“Böyük Qayıdışa dair I Dövlət Proqramı”nın icrası uğurla davam etdirlir. Azad olunmuş ərazilərin bərpasına 2025-ci il də daxil olmaqla 22,5 milyard manat vəsait yönəldilib, 2026-cı ildə isə bu məqsədlə 3,5 milyard manat vəsait ayrılması nəzərdə tutulub. Azərbaycan Prezidenti Administrasiyasının və Azərbaycanın işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyev bir qədər bundan əvvəl onun sədrliyi ilə Zəngilan şəhərində Qərargahın 5 illik fəaliyyətinə həsr olunmuş iclasda ötən dövrdə görülən işlər barədə müfəssəl məlumat verib. Onun sözlərinə görə, Qarabağın və Şərqi Zəngəzurun bərpası, yenidən qurulması istiqamətində həyata keçirilən genişmiqyaslı işlər postmünaqişə dövründə tətbiq edilən ən sistemli və sürətli yenidənqurma modellərindən biri kimi beynəlxalq təcrübə üçün mühüm nümunədir.

Həyata keçirilən genişmiqyaslı layihələr regionun bütün inkişaf mənzərəsini köklü şəkildə dəyişib. Beş il ərzində dövlətimizin başçısı işğaldan azad olunmuş ərazilər üzrə 569 tədbirdə iştirak edib, müxtəlif təyinatlı 177 layihənin təməlini qoyub, 167 obyektin və infrastruktur layihəsinin açılışını edib. Dövlətimizin başçısı bildirib ki, təkcə Ağdamda deyil, azad edilmiş bütün başqa ərazilərdə genişmiqyaslı quruculuq işləri gedir. “Böyük Qayıdış”ın inteqrasiyalı yanaşma ilə təmin olunması real nəticələr verir. Artıq “İşğaldan azad edilmiş ərazilərin Ümumi Planı”, 8 şəhərin Baş planı, 3 şəhərin isə Müfəssəl planı təsdiqlənib, Xankəndi, Xocalı, Ağdərə və Xocavənd şəhərlərinin Baş planları işlənilmə mərhələsindədir. Qarabağda və Şərqi Zəngəzurda aidiyyəti dövlət qurumları və yerli şirkətlər tərəfindən aparılan minatəmizləmə fəaliyyəti nəticəsində 240 min hektardan çox ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib, 3 beynəlxalq hava limanı istifadəyə verilib, tikintisi nəzərdə tutulmuş ümumi uzunluğu 3501,6 kilometr olan avtomobil yolları üzrə 60 layihədən 16-sı tam, 1-i isə qismən icra edilib. Avtomobil yolları üzərində 28 tuneldə qazma işləri, 392 körpü və 9 viadukun tikintisi artıq başa çatıb. Dəmir yollarının tikintisi ilə bağlı 49 körpünün tikintisi planlaşdırılıb, onlardan 42 körpünün inşası başa çatıb, 3 körpü istismara verilib. Qarabağda və Şərqi Zəngəzurda 38 su elektrik stansiyası, 4 su anbarı, 14 elektrik yarımstansiyası istismara buraxılıb, 6 magistral qaz xətti, 1000 kilometrdən artıq yüksək gərginlikli elektrik verilişi xətləri çəkilib, 8 şəhərə, 20 kəndə və 1 qəsəbəyə qazın verilməsi təmin olunub.

Bölgədə 1 xəstəxana, 19 ümumi, 7 məktəbəqədər təhsil müəssisəsi istifadəyə verilib. Bundan əlavə, Xankəndi şəhərində Qarabağ Universiteti fəaliyyətə başlayıb Bəhs olunan səfər çərçivəsində dövlətimizin başçısının iştirakı ilə Qarabağ Universitetinin Biznes və iqtisadiyyat fakültəsinin yeni inşa olunmuş binasının açılışı baş tutub, həmçinin mühəndislik fakültəsinin binasının təməli qoyulub.

Eyni zamanda, işğaldan azad olunmuş ərazilərin iqtisadi dirçəlişində əsas rol oynayan Ağdam və Cəbrayıl rayonundakı “Araz Vadisi İqtisadi Zonası” sənaye parkları salınıb. Hər iki parkda 50 müəssisə rezident, 7 müəssisə isə qeyri-rezident kimi qeydiyyata alınıb. Ümumi dəyəri 454 milyon manat olan layihələrin icrası çərçivəsində 185 milyon manat həcmində investisiya yatırılıb və 1057 yeni iş yeri yaradılıb. Parklarda fəaliyyətə başlamış rezidentlər tərəfindən 949,4 milyon manat məbləğində məhsul istehsal olunub. Ağdam Sənaye Parkı rezidentləri tərəfindən istehsal olunmuş məhsulların 39,5 milyon manatlıq hissəsi ixrac edilib. Görülən işlərin nəticəsində hazırda dövlət və özəl sektorlarda işləyənlər, həmçinin təhsil alanlar da daxil olmaqla, işğaldan azad edilmiş ərazilərdə 62 mindən çox insan yaşayır və fəaliyyət göstərir.

**Ağdamda həyat bərpa edilir**

İşğal dövründə Ağdam sözün əsl mənasında urbisidə məruz qalıb . Yəni şəhər Ermənistan dövləti tərəfindən tamamilə dağıdılıb. Prezident İlham Əliyevin bildirdiyi kimi, bu, Ermənistan dövlətinin məqsədyönlü siyasəti, bizə qarşı olan düşmənçiliyin bariz nümunəsi idi. Müharibə başa çatandan sonrakı beş ildə  isə vəziyyət dəyişib. “Bu gün Ağdam rayonunda artıq həyat bərpa edilir. Üç kənddə insanlar yaşayır. Mən bu kəndlərin yenidən istifadəyə verilməsi mərasimlərində iştirak etmişəm - Kəngərli, Sarıcalı, Xıdırlı. Orada indi bir neçə min insan yaşayır və bu köç prosesi davam edir”, - deyə Prezident İlham Əliyev məmnunluğunu bildirib.

Ağdam şəhərində Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın açılışına qatıldıqları 2-ci yaşayış kompleksində 11 məhəllə var. Burada 60 bina inşa edilib. Qeyd edək ki, dövlətimizin başçısı bu kompleksin təməlini 2023-cü ildə qoyub. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva bu ilin fevralında kompleksdə görülən tikinti işlərinin gedişi ilə tanış olublar.

Ümummiyyətlə, işğaldan azad olunmuş digər ərazilərdə olduğu kimi, Ağdamda da reallaşdırılan layihələrin sayı kifayət qədər çoxdur. Prezident İlham Əliyev səfər çərçivəsində Ağdam Sənaye Məhəlləsində yeni müəssisələrlə tanış olub. Ağdamda nəqliyyatla bağlı məsələlər uğurla həll olunur. Bərdə-Ağdam avtomobil yolu, Bərdə-Ağdam dəmir yolu ilk layihələr sırasındadır. Ağdam Dəmir Yolu və Avtovağzal Kompleksinin açılışı baş tutub. Hazırda zamanında Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə inşa edilmiş və müharibə illərində dağıdılmış Ağdam-Xankəndi dəmir yolunun inşası reallaşdırılmaqdadır. Ağdam Cümə məscidinin, Qiyaslı məscidinin, “İmarət” kompleksinin bərpası həyata keçirilib. Natəvanın ermənilər tərəfindən dağıdılmış heykəlinin eynisi ucaldılıb. Çox böyük məktəb binası, Muğam Mərkəzi, iki mehmanxana tikilib və digər çoxsaylı layihələr reallaşdırılıb.

*Mübariz ABDULLAYEV*

# Dövlətin növbəti sosial qayğısı

**Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə "Aztəminatlı ailələrə birdəfəlik maddi yardım verilməsi haqqında" Sərəncam imzalayıb. Sənədə əsasən, 2025-ci il dekabrın 30-u tarixinə aztəminatlı ailələrin hər birinə 200 manat məbləğində birdəfəlik maddi yardım veriləcək. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə, Nazirlər Kabinetinə və Maliyyə Nazirliyinə sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılıb. Birdəfəlik maddi yardım verilməsi üçün dövlət büdcəsindən 15,3 milyon manat vəsait ayrılması nəzərdə tutulub.**

## Aztəminatlı ailələrə kimlər aiddir?



Aztəminatlı ailə dedikdə, orta aylıq gəlirləri hər bir ailə üzvü üçün ehtiyac meyarının məcmusundan aşağı olan ailə başa düşülür. "Ünvanlı dövlət sosial yardımı haqqında" Qanuna əsasən, bu müavinət və yardımın məbləği ölkə üzrə ehtiyac meyarının həddinə uyğun olaraq müəyyən edilir. Ehtiyac meyarı - əhalinin əsas sosial-demoqrafik qrupları üzrə yaşayış minimumundan asılı olaraq ünvanlı dövlət sosial yardımının təyin edilməsi məqsədilə dövlət büdcəsi ilə birgə hər il üçün təsdiq olunan həddir. Belə ki, ailənin toplam gəlirlərinə ailə üzvlərinin bütün növ gəlirləri, o cümlədən ailə üzvlərinə bağışlanmış hədiyyələr, mülkiyyətdən, ailə üzvlərinə məxsus əmlakdan, şəxsi yardımçı təsərrüfatdan əldə olunan və yaxud əldə oluna biləcək pul və natural formada əldə edilən qazanc daxildir. Ailənin orta aylıq gəliri isə ailənin gəlirinin orta aylıq göstəricisi, ailədə adambaşına düşən orta gəlir isə ailənin məcmu gəlirlərinin ailə üzvlərinin sayına nisbətidir.

Azərbaycan ərazisində yaşayan və müraciətdən əvvəlki son 1 il ərzində orta aylıq gəliri onlardan asılı olmayan səbəblərdən (ailə üzvlərinin əmək qabiliyyətli olmaması, ailənin əmək qabiliyyətli üzvünün Baş Məşğulluq İdarəsinin yerli orqanında işsiz kimi qeydə alınması, vəfat etməsi, məhkəmə tərəfindən itkin düşmüş və yaxud ölmüş hesab edilməsi, azadlıqdan məhrum edilməsi, ailə üzvünün olduğu yerin məlum olmaması və s.) hər bir ailə üzvü üçün ehtiyac meyarının məcmusundan aşağı olan aztəminatlı ailələr dövlət büdcəsinin vəsaiti hesabına ailənin orta aylıq gəliri ilə hər bir ailə üzvü üçün ehtiyac meyarının məcmusu arasında yaranan fərq məbləğində sosial yardım almaq hüququna malikdir. Qeyd edək ki, qohumluq və ya qanunvericiliklə müəyyən olunmuş digər xüsusiyyətlərə görə bağlılığı olan, birgə yaşayan, ümumi ev təsərrüfatına malik şəxslər və yaxud tənha yaşayan şəxslər də ünvanlı dövlət sosial yardımı məqsədli ailə üzvü kimi qəbul edilir.

Beləliklə, aztəminatlı ailələrin hər biri ünvanlı sosial yardım alır. 2025-ci il üçün ölkəmizdə ehtiyac meyarının həddi 285 manat məbləğində təsdiq edilib. Bu, o deməkdir ki, 4 nəfərlik ailənin aylıq gəlirləri (285*4=1140) 1140 manatdan az olan ailələr bu yardımı əldə edirlər. 2018-2025-ci illər ərzində bu yardımın hər ailəyə düşən orta aylıq məbləği 2,4 dəfə artıb və hazırda 425 manat təşkil edir.

Hazırda ünvanlı sosial yardımla təmin olunan 76 min ailə mövcuddur və bu o deməkdir ki, 200 manat birdəfəlik maddi yardımı 76 min ailə əldə edəcək.

## Yardımlar necə ödəniləcək?

200 manata almaq üçün aztəminatlı ailələrin heç bir quruma, sosial müdafiə mərkəzlərinə müraciət etməsinə ehtiyac yoxdur. Çünki ünvanlı sosial yardımla bağlı qaydalar təkmilləşdirilib. Ünvanlı yardım proqramına əlçatanlığın artırılması, yardımın təyinat şərtlərinin yumşaldılması üçün qanunvericilikdə bir sıra dəyişikliklər edilib. Ötən il isə "Ünvanlı yardım" e-sistemi yenidən qurulmaqla, yardım üçün müraciət proseduru xeyli sadələşdirilib. E-sosial sistemi ünvanlı yardım proqramın icrasında ünvanlılığın təminatına, yardım alınması üçün müraciət və təyinat prosesinin məmur-vətəndaş kontaktları olmadan, tam şəffaf həyata keçirilməsinə imkan yaradıb. Digər tərəfdən, proqramın icrasının, bu sahədə xidmətlərin və idarəçiliyin operativliyi, sosial yardım sisteminin aztəminatlı ailələrə daha əlçatan olması təmin edilib. Hər hansı vətəndaş təmsil etdiyi ailənin sosial yardım almaq hüququna baxılması üçün yalnız e-qaydada müraciət edərək, ailəsinin tərkibi, gəlirləri, əmlakı və s. barədə məlumatları e-sistemə daxil edir və bu məlumatlar avtomatlaşdırılmış rejimdə yoxlanaraq qərar qəbul olunur.

Ona görə də, e- sistem yardımı alan ailələrin siyahısını özü emal edərək bank qurumuna təqdim edəcək. Proaktiv sistem bütün prosesləri özü təmin edir. Bu baxımdan 200 manat yardımın alınması üçün heç bir quruma müraciət etməyə və yaxud kart almağa ehtiyac yoxdur. Bayram yardımı ünvanlı sosial yardım alan ailələrin mövcud kartlarına ödəniləcək.

Beləliklə, dövlət başçısının imzaladığı müvafiq sərəncam bir daha təsdiq edir ki, dövlətin sosial siyasətində əsas prioritet istiqamət kimi vətəndaşların rifahının yüksəldilməsi və sosial təminatın dayanıqlığı mühüm yer tutur. Aztəminatlı ailələrin ən əlamətdar tarixi təqvimlərdən birində - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günündə dövlət tərəfindən həssaslıqla qarşılanması hökumətin onlara bayram sevinci bəxş etməsi deməkdir.

***E.CƏFƏRLİ***

# Şəhərsalmada Azərbaycan təcrübəsi - qədimliklə müasirliyin vəhdəti

## 2026-cı il Azərbaycanda "Şəhərsalma və Memarlıq İli" elan edilib

Azərbaycanda qarşıdan gələn 2026-cı il "Şəhərsalma və Memarlıq İli" elan edilib. Bununla bağlı Prezident İlham Əliyev müvafiq Sərəncam imzalayıb. Sərəncamla Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına Azərbaycan Respublikasında 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi ilə bağlı tədbirlər planına dair təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etmək tapşırılıb.

Azərbaycanda 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi təsadüfi deyil. 2024-cü ildə respublikamızda BMT-nin ən mühüm və ən böyük tədbirlərindən biri olan iqlim konfransı - COP29 böyük uğurla baş tutdu. Gələn il ölkəmizdə daha bir mötəbər beynəlxalq tədbirin keçirilməsi gözlənilir. Söhbət 2026-cı il 17-22 may tarixində Bakı şəhərində keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasından (WUF13) gedir. Dünyanın nəzərləri yenidən Azərbaycana yönələcək, müasir dövrdə qlobal şəhərsalma çağırışları ölkəmizdə müzakirə olunacaq.

### Tarixin daş yaddaşı

Günümüzədək gəlib çatan qala şəhərlər, memarlıq abidələri tarixin daş yaddaşı kimi səciyyələndirilir. Burada böyük həqiqət payı var. Texnologiyanın inkişafının zəif olduğu dönəmlərdə inşa olunan və bu gün də memarlıq əhəmiyyətini itirməyən, gözəlliyi ilə insanmları valeh edən tikililər əcdadlarımızın yaradıcılıq təxəyyülünün nə qədər geniş olduğunu təsdiqləyir. Bu qəbildən olan tikililər, eyni zamanda, məmləkətimizin inkişaf mərhələlərini əks etdirir, tarixi yaşadır. Sərəncamda vurğulandığı kimi, Azərbaycanda şəhərsalma və memarlıq ənənələrinin çoxəsrlik zəngin bir keçmişi vardır. Bu gün ölkə ərazisində dövlət tərəfindən mühafizə olunan müdafiə qalaları, karvansaralar, məscid, məbəd və türbələr milli memarlığın parlaq ənənələrini əks etdirir. Möminə xatun türbəsi, Xudafərin körpüsü, "Atəşgah" kompleksi və digər bu kimi misilsiz nümunələr Azərbaycanın memarlığının rəmzlərinə çevrilib. İndiyədək özünəməxsus Azərbaycan memarlığının gözəl nümunələri olan İçərişəhər və Şirvanşahlar sarayı kompleksi, Qız Qalası, Şəkinin tarixi mərkəzi və Xan sarayı UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilib. Təkcə bu fakt Azərbaycan memarlığının və şəhərsalma ənənələrinin nə qədər zəngin olduğunu əyani şəkildə təsdiqləyir. Qürurverici haldır ki, tariximizin daş yaddaşını məhz milli memarlarımız yaradıblar. 900 illiyi UNESCO səviyyəsində qeyd olunan qüdrətli sənətkar Əcəmi Naxçıvaninin yaradıcılığı bütövlükdə Yaxın Şərq ölkələrinin orta əsrlər memarlığına güclü təsir göstərib və bir məktəbə çevrilib. XX yüzillikdə adları tarixdə qalan Azərbaycan memarlarının pleyadasına Mikayıl Hüseynov və Sadıq Dadaşov kimi görkəmli simaların adları daxil olub. Onların layihələri əsasında tikilən binallar tarixi ənənələrdən qaynaqlanan milli memarlıq üslubunun təkrarsız nümunələridir.

### 100-dən artıq yaşayış məntəqəsi, 12 şəhər üzrə quruculuq-bərpa işləri

Bu gün həmçinin Azərbaycanın işğaldan azad olunmuş ərazilərdə reallaşdırdığı bərpa modelini fəxrlə təqdim etmək mümkündür. Bu model dayanıqlılıq, ərazi reinteqrasiyası və insanyönümlü inkişaf prinsiplərinə əsaslanır. Qarabağ və Şərqi Zəngəzurdakı şəhər və kənd icmaları üçün kompleks Baş planlar hazırlanıb və həyata keçirilir. Bu planlar sadəcə texniki sənədlər deyil - həyatların yenidən qurulması üçün yol xəritəsidir. Regionun ümumi planlaşdırılması başa çatıb. 13,6 min kvadratkilometr ərazini əhatə edən bu plan əsasında 1,1 milyon nəfərdən çox insanın doğma şəhər və kəndlərində məskunlaşması üçün yenidənqurma işləri icra olunur. Bütövlükdə, Ermənistanın işğal etdiyi və otuz il ərzində viran qoyduğu ərazilərimizdə 44 günlük Vətən müharibəsindəki Zəfərin ardınca innovativ yanaşmaların tətbiqi ilə həyatı yenidən canlandıran genişmiqyaslı bərpa-quruculuq işləri Azərbaycan dövlətinin memarlıq və şəhərsalmaya müfəssəl baxışını aydın nümayiş etdirir. Sərəncamda vurğulanır: "Böyük Qayıdışa dair I Dövlət Proqramına müvafiq qaydada "yaşıl enerji" zonası elan edilmiş bu ərazilərdə 2020-2025-ci illərdə - dünya memarlıq-inşaat təcrübəsində az rast gəlinən qısa bir müddətdə 100-dən artıq yaşayış məntəqəsi, o cümlədən 12 şəhər üzrə planlaşdırma sənədləri hazırlanmış və quruculuq işlərinə başlanılmışdır. Azərbaycanın mədəniyyət paytaxtı, xalqımızın qürur mənbəyi Şuşa şəhərinin əvvəlki memarlıq mühiti və əsl tarixi siması bərpa edilməklə dirçəldilməsi isə milli iradənin təzahürüdür".




### Müasir dövrdə yaranan yeni memarlıq nümunələri

Azərbaycan memarlığının inkişafında ayrı-ayrı dövrləri fərqləndirmək mümkündür. Xüsusilə də Ümummilli Lider Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi illər Azərbaycan şəhərsalma və memarlığının inkişafında xüsusi mərhələ təşkil edir. Sərəncamda oxuyuruq: "Tarixən təşəkkül tapmış Azərbaycan şəhərlərinin və bütöv şəhərsalma sistemlərinin qorunması ilə bağlı bu illərdə Ulu Öndərin təşəbbüsü əsasında vacib qərarlar qəbul edilmiş, tədbirlər həyata keçirilmiş, şəhərlərdə memarlıq abidələrinin bərpası üzrə planlı iş aparılmış, memarlıq və şəhərsalma fəaliyyətinin davamlılığını təmin edən institusional təsisatlar qurulmuşdur".

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra şəhər quruculuğu sahəsindəki yeni təzahürlər ölkədə inşa edilən monumental komplekslərin memarlıq həllində özünü qabarıq şəkildə büruzə verir. Azərbaycanın milli inkişaf strategiyasında şəhərsalma prioritet istiqamətlərdən biri kimi müəyyənləşdirilib. Ölkədə şəhərsalma və urbanizasiya sahəsində qəbul edilmiş yanaşmalar iqtisadi dayanıqlılığa, sosial-iqtisadi rifaha, iqlim dəyişmələrinə uyğunlaşmaya töhfə verir.

Hazırda respublikamızda paytaxtdan ölkənin bütün bölgələrinə qədər genişmiqyaslı şəhərsalma transformasiyası həyata keçirilir. "Bakı şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planı"nın əsas xüsusiyyətlərindən biri çoxmərkəzli inkişaf modelinin tətbiqidir. Bu modelə əsasən, bütün fəaliyyətlərin bir mərkəzdə cəmlənməsi əvəzinə, Bakı şəhəri boyunca bir-biri ilə əlaqəli mərkəzlər və alt-mərkəzlər şəbəkəsi formalaşdırılır. Hazırda paytaxtımız qədimliklə müasirliyin vəhdətində inkişaf etdirilir. Yeniləşməni, müasirləşməni simvolizə edən Heydər Əliyev Mərkəzi, Alov qüllələri kimi modern üslublu unikal tikililər paytaxtımızın yeni gözəllik rəmzlərinə çevrilib və şəhərimizə gələn turistləri heyran qoyur.

Sərəncamda diqqət çəkilən Ağ şəhər dünyaya yeni şəhərsalma konsepsiyası təqdim edir. "Bakı Ağ şəhər" layihəsi, ilk növbədə, Prezident İlham Əliyevin təşəbbüsü ilə həyata vəsiqə alıb və hazırda uğurla reallaşdırılır.

### Beynəlxalq tərəfdaşlarla ortaq fəaliyyətin uğurlu nümunəsi

Azərbaycan digər sahələrdə olduğu kimi, dünyadakı şəhərsalma çağırışları fonunda da ortaq məqsədlər naminə həmrəylik nümayiş etdirir. Bu baxıdan respublikamızın BMT-nin Məskunlaşma Proqramı (UN-HABITAT) çərçivəsində əməkdaşlığı da böyük önəm daşıyır.

Bu əməkdaşlığın nəticəsində Azərbaycanda ilk dəfə olaraq 2022-ci il oktyabrın 5-6-da BMT-nin Məskunlaşma Proqramı ilə birgə Ağdam və Bakı şəhərlərində 44 ölkədən ümumilikdə 400 nəfər iştirakçının qatıldığı 1-ci Milli Şəhərsalma Forumu təşkil edilib. 2023-cü il sentyabrın 29-da isə BMT-nin Məskunlaşma Proqramının və Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin əməkdaşlığı ilə keçirilən "Şəhərsalma Həftəsi 2023" tədbirləri çərçivəsində Zəngilanda "Davamlı şəhərlər iqtisadi inkişafın hərəkətverici və bərabərsizliklərlə mübarizə aparan qüvvəsi kimi" mövzusunda 2-ci Milli Şəhərsalma Forumunun açılış mərasimi baş tutub. Cari il oktyabrın 15-də isə Xankəndi şəhərində III Azərbaycan Milli Şəhərsalma Forumunun açılış mərasimi keçirilib və sonra tədbir paytaxt Bakıda davam etdirilib. "BMT nin Məskunlaşma Proqramı ("UN-Habitat") ilə birgə təşəbbüslər və bu çərçivədə memarların bir araya gəldiyi milli şəhərsalma forumları Azərbaycanın beynəlxalq tərəfdaşlarla ortaq fəaliyyətinin uğurlu nümunəsidir. BMT-nin Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü sessiyasının (WUF13) 2026-cı ildə Bakı şəhərində keçirilməsi qərarı Azərbaycanın dayanıqlı şəhərsalma proseslərində artan rolunu göstərir", - deyə Sərəncamda vurğulanır.

***Mübariz ABDULLAYEV***

# Azərbaycan-ABŞ münasibətləri üçün yeni imkanlar

Energetika naziri Pərviz Şahbazovla ABŞ-ın Azərbaycandakı müvəqqəti işlər vəkili Emi Karlon arasında keçirilən görüş zamanı enerji sahəsində yaranmış yeni imkanlara diqqət çəklib, Vaşinqtonda imzalanmış Strateji Tərəfdaşlıq Xartiyasında enerji layihələrinin əsas prioritetlərdən biri kimi müəyyənləşdirildiyi vurğulanıb. ABŞ şirkətləri ilə enerji sahəsində mütəmadi dialoq mexanizminin yaradılması və əhatəli "yol xəritəsi"nin hazırlanması planlarına toxunulub. Habelə, tərəflər "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu"nun (TRIPP) mətli konsepsiya olmaqla, əməkdaşlığın inkişafına təkan verməkdədir. Son aylarda iki dövlət arasında iqtisadi və siyasi bloklarda ardıcılıq xarakter alan sıx təmasların artması və qətiyyətli iradənin ortaya qoyulması Bakı-Vaşinqton münasibətlərinin tamamilə yeni dövrə daxil olmasına səbəb olub. SOCAR və "ExxonMobil" korporasiyası arasında "Əməkdaşlıq haqqında Memorandum"un imzalanmasından sonra ABŞ-ın məşhur enerji korporasiyası Azərbaycanda yeni fəaliyyət planlarına start verib və Xəzərdə müasir enerji həmrəyliyi halqası daha böyüməkdədir. "Azəri-Çıraq-Günəşli" layihəsində tərəfdaş olan "Exxon" ötən dövrdə neft emalı və nəqli, enerji sektorunda müasir qazma texnologiyalarının tətbiqi, habelə resusrların diversifikasiyasında mövcud olan təcrübəsini yeni perspektivli enerji bloklarında tətbiq etməkdədir. Bu isə Xəzərdə yeni karbohidrogen tədarüklərinin başlanması üçün yaxşı fürsət deməkdir. Beynəlxalq maliyyə qrupu olan "EXIM Bank"ın bu prosesə qoşulması isə nəql infrastrukturunun şaxələnməsində potensial maliyyəni təmin edəcək.






regionda enerji tranzitlərinin də əlaqələndirilməsinə töhfə verəcəyinə əminliyini ifadə ediblər.

İqtisadiyyat naziri Mikayıl Cabbarovun ABŞ dövlət katibinin iqtisadi, enerji və biznes məsələləri üzrə köməkçisi Keyleb Or ilə videokonfrans formatında keçirilən görüşündə Cənubi Qafqaz və Xəzər regionunda həyata keçirilən enerji layihələri, qaz nəqli və bu sahədə birgə fəaliyyətin şaxələndirilməsi imkanları müzakirə olunub. Tərəflər iqtisadi sahədə işbirliyini dərinləşdirmək üçün mövcud potensialların artırılmasına diqqət çəkib, enerji, nəqliyyat, biznes və digər sahələrdə əməkdaşlığın strateji səviyyətə çatdırılması üçün səylərin artırlmasının vacibliyinə toxunublar. Azərbaycanın etibarlı enerji tərəfdaşı, Avropa və Mərkəzi Asiya ölkələri arasında regional mərkəz kimi strateji mövqeyi xatırladılıb.

**"ExxonMobil" Xəzərdə yeni enerji həmrəyliyi yaradır**

Azərbaycan və ABŞ arasında münasibətlərin yeni gündəliyini müəyyən edən Strateji Tərəfdaşlıq Xartiyası üzrə Memorandum iqtisadi-ticari-enerji sahəsində çoxistiqa-

**"Yaşıl enerji" - enerji diplomatiyasının yeni səhifəsi**

ABŞ Azərbaycanda enerjinin yeni gündəliyi olan "yaşıl hidrogen" və bərpaolunan enerji mənbələrinin tədarükü və nəqli proseslərinə də dəstək verərək fəal əməkdaşlığa can atır. Azərbaycanın "yaşıl enerji" üzrə nəql marşrutu da Şərq-Qərb xətti üzərində qurulub ki, bu da Vaşinqtonun dəstəklədiyi enerji konsepsiyasına uyğundur. Bütün bunlar onu göstərir ki, ABŞ-ın "yaşıl enerji" proqramlarında Azərbaycanla birəg əməkdaşlığı üçün fürsət və mühit də formalaşıb.

ABŞ şirkətlərinin Azərbaycanın azad edilmiş ərazilərində digər sahələrə investisiya qoyması üçün də imkanlar böyükdür. Hazırda bu ölkənin qeyri-hökumət təşkilatı Marşal Fondu Azərbaycanın ANAMA təşkilatına ərazilər minalardan təmizlənməsi işinə dəstək verir. Bu faktor da amerikalı şirkətlərin ərazilərin minalardan təmizlənməsindən sonra həmin torpaqlarda əsası qoyulan aqrar, aqrar-sənaye, enerji layihələrində təmsil olunmasına stimul verə bilər. Həmçinin son aylarda Avropanın, Böyük Britaniyanın nüfuzlu şirkətləri azad edilmiş ərazilərdəki potensialı qiymətləndirərək burada icra edilən investisiya layihələrində iştirak üçün təkliflərlə çıxış etməkdədir. Xarici sərmayəşilərin artan bu marağı və Qarabağda intensiv xarakterən alan işgüzaklıq, investisiya təşəbbüskarlıqları ABŞ şirkətlərinin də xarici tərəfdaşları ilə birgə eyni cərgədə yer almasında motivasiyaedici rol oyanaya bilər. Üstəlik, bərpa olunan enerji sektoruna maraq göstərən Amerika şirkətlərinin bu sahə ilə birbaşa bağlı olan sənaye sahələrində də təmsil olunması imkanları böyükdür.

Azərbaycan və ABŞ arasında strateji tərəfdaşlıq formatı qarşılıqlı investisiya, ticarət, rabitə, süni intellekt, tranzit, müdafiə sahəsi və digər sahələri də əhatə edir. Ələlxüsus da, dördüncü sənaye inqilabının və süni zəka dövrünün tələbatlarına uyğun olaraq, startaplar, rəqəmsal texnologiyalar, innovasiyayönümlü sənaye layihələri, süni intellekt və "yaşıl iqtisadiyyat" transformasiya üzrə yaxından işləmək planları ön sırada dayanır.

***ELBRUS CƏFƏRLİ***

# Azərbaycan - Türkiyə:
## Enerji əməkdaşlığının yeni səhifəsi yazılır

*Mübariz ABDULLAYEV*

"Abşeron" yatağından qazın 2029-cu ildən başlayaraq Türkiyəyə ixracına başlanılması ilə bağlı danışıqlar aparılır

Zəngin ehtiyatlara malik olan Azərbaycan enerji dialoqunun ikinci mərhəlsini təşkil edən mavi yanacaq seqmenti üzrə beynəlxalq əməkdaşlığı genilləndirir. Artıq Azərbaycan qazı 14 ölkəyə ixrac olunur. Perspektivdə isə ixrac həcmlərinin artırılması nəzərdə nəzərdə tutulur və bunun üçün bütün imkanlar var.

İxrac həcmlərinin artırılması planlaşdırılan ölkələr sırasında qardaş Türkiyə də yer alır. Bununla bağlı Baş nazir Əli Əsədov Azərbaycan-Türkiyə Birgə Hökumətlərarası Komissiyanın 12-ci iclasında çıxışı zamanı məlumat verib. Hökumət başçısı bildirib ki, Xəzərin Azərbaycan sektorundakı "Abşeron" yatağından qazın 2029-cu ildən başlayaraq Türkiyəyə ixracına başlanılması ilə bağlı danışıqlar aparılır.

**Qarşılıqlı etimadın göstəricisi**

Uzun illəri əhatə edən enerji dialoqu Azərbaycanla Türkiyə arasında ikitrəfli əməkdaşlığın çox mühüm istiqamətidir. Bu sahədə əməkdaşlıq iki ölkənin mənafeyinə xidmət etməklə yanaşı, bütün Avropanın enerji təhlüükəsizliyi üçün müstəsna önəm daşıyır. Qardaş ölkələrin səyləri və tərəfdaş dövlətlərin iştiraakı ilə bir neçə nəql marşrutu yaradılıb. Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəməri 2005-ci ildən bəri fasiləsiz fəaliyyət göstərir. Bu kəmər vasitəsilə İtaliya və İsrail kimi ölkələrə neft tədarük edilir. Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin istifadəyə verilməsi ilə Azərbaycan özünü dünyaya həm də mavi yanacaq ölkəsi kimi təqdim etməyə başlayıb. Qeyd edək ki, 2007-ci il iyulun 3-də "Şahdəniz" qaz-kondensat yatağından hasil edilən təbii qaz Bakı-Tbilisi-Ərzurum vasitəsilə Türkiyənin qaz kəmərləri sisteminə daxil olub. 2025-ci ilin yanvar-noyabr aylarında Azərbaycanın magistral qaz kəmərləri ilə 36 milyard 303,5 milyon kubmetr qaz nəql edilib. Qazın nəqlinin 58,2 faizi Bakı-Tbilisi-Ərzurum Cənubi Qafqaz boru kəməri vasitəsilə həyata keçirilib. Bu kəmərlə 21 milyard 121,8 milyon kubmetr qaz ötürülüb. 2018-ci ilin yayından isə "Şahdəniz" yatağının ikinci mərhələsi çərçivəsində hasil edilən qazın genişləndirilmiş Cənubi Qafqaz Boru Kəməri ilə Türkiyəyə - TANAP kəmərinə təhvil verilməsinə başlanılıb. 2024-cü il məlumatına görə, Azərbaycan Türkiyənin idxal etdiyi qazın təxminən 22 faizini təmin edir ki, bu da Rusiyadan (41 faiz) sonra ikinci ən böyük təchizat mənbəyi deməkdir. İndiyədək Azərbaycandan Türkiyəyə 120 milyard kubmetrdən çox qaz ixrac olunub, TANAP-la Türkiyəyə 35 milyard, Avropaya isə 50 milyard kubmetrdən artıq qaz nəql edilib. Bu ilin 8 ayında Türkiyəyə 6,6 milyard, Türkiyə üzərindən Avropa ölkələrinə isə 8,3 milyard kubmetr qaz çatdırılıb. Azərbaycan-Türkiyə strateji müttəfiqliyi sayəsində Suriyanın da enerji təhlükəsizliyinə töhfə verilir və qısa müddətdə bu ölkəyə 60 milyon kubmetrdən çox qaz göndərilib.

Hər iki tərəf enerji dialoqunu genişləndirmək niyyətindədir. Ötən ilin may ayında iqtisadiyyat naziri Mikayıl Cabbarovun qardaş ölkəyə səfəri çərçivəsində "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında təbii qaz sahəsində əməkdaşlıq Sazişi" imzalanıb. Sazişə əsasən, Azərbaycan və Türkiyə bölgədə enerji təhlükəsizliyinin təmin edilməsi və enerji təchizatı mənbələrinin şaxələndirilməsi üzrə əməkdaşlığı dərinləşdirəcək.



İndiyədək Azərbaycanla Türkiyə arasında 4 enerji forumu baş tutub. Cari ilin sentyabr ayında İzmirdə keçirilən IV Enerji Forumunun açılış mərasimindəki çıxışında Azərbaycanın energetika naziri Pərviz Şahbbazov vurğulayıb: "Azərbaycan-Türkiyə enerji tərəfdaşlığı ölkələrimizi neft, qaz və bərpa olunan enerji sahəsində uzunmüddətli tərəfdaş kimi möhkəmləndirən, dəyişən geosiyasi reallıqlar fonunda regional və qlobal miqyasda mövqelərimizi gücləndirən yeni mərhələyə daxil olub. "İğdır-Naxçıvan" qaz kəmərinin istifadəyə verilməsi, TPAO şirkətinin "Şəfəq-Asiman" layihəsinə qoşulması, Suriyaya qaz tədarükünə başlanması, "yaşıl enerji interkonnektor"larının qurulması və Zəngəzur dəhlizi, yaxud "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" üzrə razılaşmaların əldə olunması enerji əlaqələrimizin yeni, daha güclü səhifəsini yazır."

Azərbaycanın Türkiyənin enerji sektoruna böyük həcmdə sərmayə yönəltməsi də təqdirəlayiq halldır. SOCAR Türkiyədəki ümumi investisiya həcmini 18 milyard ABŞ dollarından çox səviyyəyə çatdırıb. Bu investisiyaların ən mühüm komponentlərindən biri İzmirin Əliağa bölgəsində yerləşən və 6,3 milyard ABŞ dolları dəyərində olan "STAR" Neft Emalı Zavodudur. 2018-ci ildən fəaliyyət göstərən "STAR" zavodu hər il 10 milyon ton xam neft emal etmək gücündədir və Türkiyənin enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır. Eyni zamanda, qardaş ölkədə SOCAR-ın iştirakı ilə "Petkim" neft-kimya kompleksi fəaliyyət göstərir. Ümumiyyətlə, Azərbaycanla Türkiyə arasında enerji dialoqunun intensivliyi kifayət qədər yüksək səviyyədədir ki, bu da qarşılıqlı etimadın göstəricisidir.

**Məsafədən idarə olunan nadir platforma**

Xəzər dənizinin Azərbaycan sektorunda, Bakıdan təxminən 100 kilometr cənub-şərqdə yerləşən "Abşeron" qaz-kondensat yatağının işlənməsinin İlkin Hasilat Sxemi (İHS) mərhələsi üzrə hasilata 2023-cü ilin yayından start verilib. "Şahdəniz" Azərbaycanın əsas qaz yatağıdır - ancaq digər yataqların potensialı da kifayət qədər böyükdür. "Ümid" yatağının ehtiyatları 200 milyard kubmetrdən çoxdur. "Şahdəniz", "Azəri-Çıraq-Günəşli" layihələrinin operatoru olan BP ilə icrasına başlanan "D 230" bloku, "Şəfəq-Asiman" və başqa qaz yataqlarının işlənilməsi üzərində işlər davam etdirilir.

"Abşeron" yatağının işlənməsinin ilkin mərhələsi sualtı hasilat quyusunu SOCAR-ın "Neft Daşları"ndakı mövcud qurğuları ilə əlaqəli yeni qaz emalı platformasına birləşdirir. Yatağın işlənməsinin birinci mərhələsində ildə 1,5 milyard kubmetr qaz və sutkada 12 min barel kondensat hasilatı təmin edilməklə istehsalın sabit və təhlükəsiz səviyyəsi qorunur. "Abşeron" un işlənməsinin ikinci mərhələsi (tammiqyaslı işlənmə - FFD) üçün FEED layihəsi bir il ərzində yekun investisiya qərarının (FİD) qəbul edilməsinə hazır olmaq məqsədi ilə 2025-ci ilin



əvvəlində başlayıb.

JOCAP (Absheron Petroleum Birgə Əməliyyat Şirkəti) tərəfindən idarə olunan layihədə SOCAR və TotalEnergies hər biri 50 faiz paya malikdir.

Qeyd edək ki, Xəzər dənizinin ilk məsafədən idarə olunan platforması olan Abşeron İHS layihəsinin qəbul platformasının idarəetməsi "Neft Daşları"nda yerləşən Mərkəzi İdarəetmə Otağından həyata keçirilir.

Xəzər dənizində, "Azəri-Çıraq-Günəşli" yataqlar blokundan cənub-qərbdə, dənizin 500 metr dərinliyində yerləşən "Abşeron" yatağının ehtiyatları 350 milyard kubmetr qaz və 100 milyon tona yaxın kondensat həcmində qiymətləndirilir. "Abşeron" yatağından ilk hasilatın başlanılmasınadək keçilən yol isə, necə deyərlər, heç də hamar olmayıb.

"Abşeron" yatağı ötən əsrin altımışıncı illərində kəşf edilib. Ancaq uzun illər ərzində yatağın işlənməsinə başlamaq mümkün olmayıb. Çünki o dövrdə mövcud texnika və texnologiyalar Xəzər dənizinin dərinliklərində qazma işlərini həyata keçirməyə imkan vermirdi. Digər tərəfdən, qaz sənayesinə maraq az idi. İnvestorlar neftçıxarma ilə müqayisədə gəlirliliyi aşağı olan bu sahəyə sərmayələr yönəltməyə böyük maraq göstərmirdilər. Nəhayət, 1997-ci ildə "Abşeron" yatağı üzrə hasilatın pay bölgüsünə dair birinci beynəlxalq müqavilə imzalanıb. Layihə çərçivəsində görülən işlər uğursuz nəticələnib və ilk quyu debit verməyib. Bu səbəbdən də xarici şirkətlə imzalanan müqaviləyə 2005-ci ildə xitam verilib.

Aradan dörd il ötəndən sonra "Abşeron" yatağı üzrə işlər yenidən canlanıb. Belə ki, 2009-cu il fevralın 27-də Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə "Total" şirkəti arasında "Abşeron" yatağı üzrə yeni müqavilə imzalanıb. 2015-ci ildə isə SOCAR və "Total" birgə "JOCAP" (Joined Operating Company Absheron Petroleum) əməliyyat şirkətini yaradıblar. Beləliklə, "SOCAR Absheron" və "Total E&P Absheron" törəmə şirkətlərinin bərabər paylarla iştirak etdiyi JOCAP (Joined Operating Company Absheron Petroleum) birgə müəssisəsi "Abşeron" yatağının operatoru elan olunub. Müqavilənin 30 il müddətinə həyata keçirilməsi nəzərdə tutulur. 747 kvadratkilometr ərazini əhatə edən müqavilə sahəsində aparılan ilkin kəşfiyyat işləri uğurla nəticələnib. 2011-ci ilin sentyabr ayında "Abşeron"da çox böyük qaz ehtiyatlarının aşkar olunması rəsmən elan edilib.

# Dayanıqlı iqtisadiyyat, sabit məzənnə, birrəqəmli inflyasiya...
## Mərkəzi Bank 2026-cı ildə pul siyasətinin əsas istiqamətlərini bəyan edib

Mərkəzi Bank (MB) 2026-cı il üçün pul siyasətinin əsas istiqamətləri barədə bəyanat yayıb. Pul siyasəti "2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda müəyyən edilmiş makroiqtisadi sabitlik və dayanıqlılıq prioritetlərinin reallaşmasına yönəldiləcək, əsas istiqamətlər qlobal iqtisadiyyat, habelə ölkənin xarici balansı, fiskal və real sektorları üzrə proqnozları nəzərə alınmaqla tətbiq olunacaq.

MB növbəti ildə də pul siyasətinə dair qərarlar verərkən ölkə iqtisadiyyatına və inflyasiyaya təsir göstərə biləcək daxili və xarici amilləri, habelə riskləri hərtərəfli qiymətləndirəcək, məzənnə sabitliyi qiymət sabitliyinin başlıca amili kimi çıxış edəcək. Proqnozlara görə, növbəti ildə tədiyə balansının cari əməliyyatlar hesabının profisitli olması valyuta bazarında tarazlığı dəstəkləyəcək. Baza ssenari üzrə proqnozlara görə, 2026-cı ildə cari əməliyyatlar hesabının profisiti 3 milyard dollar səviyyəsində olmaqla, ÜDM-in 3,7 faiz səviyyəsində gözlənilir.

**Manatın məzənnəsi ilə bağlı gözləntilər**

2026-cı ildə də pul siyasətinin ötürücülüyündə məzənnə kanalının başlıca rol oynayacağı gözlənilir. Manatın nominal effektiv məzənnəsi inflyasiya idxalına əhəmiyyətli təsir göstərən amillərdən biri olaraq qalacaq. Beynəlxalq analitik mərkəzlərin ikitərəfli məzənnələr üzrə proqnozları əsasında aparılan son hesablamalara görə, 2026-cı ildə də manatın nominal effektiv məzənnəsi möhkəmlənmə istiqamətində dəyişəcək.

Gələn il qiymət sabitliyinin başlıca xətti manatın ABŞ dollarına nəzərən ikitərəfli məzənnəsi banklararası əqdlər üzrə orta məzənnə əsasında (hərraclar) müəyyən ediləcək. Mərkəzi Bankda Dövlət Neft Fondunun valyuta satışlarının həyata keçirilməsi üzrə hərracların keçirilməsi davam etdiriləcək. Əvvəlki illərin təcrübəsinə uyğun olaraq dövlətin valyuta tələbi və təklifinin dəyişməsindən asılı olaraq Mərkəzi Bank 2026-cı ildə də valyuta bazarında valyuta satışı və alışları həyata keçirə bilər. Valyuta hərracları ilə yanaşı, fiskal orqanlar (DNF və Maliyyə Nazirliyi) arasında effektiv koordinasiya ilə valyuta bazarının tarazlı fəaliyyətini dəstək veriləcək.

Bank sistemindəki likvidliyin idarə edilməsində daimi imkan alətləri, açıq bazar əməliyyatları yenə də üstün strateji qərarlardan biri olacaq. Bu sektorda gözlənilən struktur profisiti ilə əlaqədar olaraq növbəti ildə də Mərkəzi Bankın sterilizasiya yönümlü alətlərinə tələbatın olacağı ehtimalı yüksəkdir. Bununla belə,



struktur profisiti struktur kəsiri ilə əvəzləndiyi təqdirdə arsenalda olan likvidliyin verilməsi alətləri açıq bazar əməliyyatları çərçivəsində işə düşəcək.

**İnflyasiya ilə bağlı proqnozlar**

İnflyasiyanın hədəf daxilində idarə edilməsi davamlı iqtisadi artımın vacib şərtlərindən biridir. Bu, ev təsərrüfatlarının, həmçinin şirkətlərin gəlir və əmanətlərinin qorunması üçün vacibdir. Sabit və aşağı inflyasiya milli valyutaya inamı və onun alıcılıq qabiliyyətini artırır, bununla da iqtisadiyyatda xarici valyuta ilə ifadə olunmuş aktiv və öhdəliklərin payını azaltmağa kömək edir. Bütün bunlar iqtisadiyyatın xarici mühitdəki dəyişikliklərə davamlılığını artırır.

MB-nin bəyanatında bildirilir ki, növbəti ildə pul siyasəti qiymət sabitliyinin təmin edilməsinə, inflyasiyanın müəyyən edilmiş hədəf daxilində sabitləşməsinə yönəldiləcək, bu istiqamətdə islahatlar davam etdiriləcək. Gələn il illik inflyasiyanın 5,7 faiz olacağını gözləyir ki, bu da hədəf diapazonu daxilindədir. Hökumətin, beynəlxalq maliyyə-kredit təşkilatlarının və beynəlxalq reytinq agentliklərinin proqnozları da inflyasiyanın növbəti ildə, əsasən, bu diapazonda qalacağını göstərir. Ona görə də, Mərkəzi Bank 2026-cı ildə də inflyasiya amillərinin hərtərəfli təhlili əsasında özünün inflyasiya proqnozlarını müntəzəm yeniləyəcək. Ümumi inflyasiya ilə yanaşı, baza inflyasiyanın da dinamikası davamlı şəkildə təhlil olunacaq, eyni zamanda, inflyasiya gözləntilərinin qiymətləndirilməsi davam etdiriləcək.

Qiymətlər sabitliyi ilə bağlı bir sıra xarici və daxili risklər aktuallığını saxlayır. Növbəti ildə də xarici faktorlar - dünya bazarında əmtəə qiymətlərinin dinamikası, tərəfdaş ölkələrdə inflyasiya prosesləri və iqtisadi aktivlik ölkədəki inflyasiya proseslərinə təsir göstərəcək. Geosiyasi gərginliyin davam etməsi şəraitində sözügedən xarici faktorların dəyişkən olaraq qalacağı gözlənilir. Məcmu tələbin izafi genişlənməsi ehtimalı, qiymətləri dövlət tərəfindən tənzimlənən məhsul və xidmət tariflərinin dəyişimi, habelə inflyasiya gözləntilərinin artması isə qiymət sabitliyi üçün daxili risk mənbələridir.

**"Yaşıl maliyyə" və faiz dərəcələri**

Ölkədə maliyyə dərinliyinin artırılması, maliyyə sabitliyinin qorunması, rəqəmsal ödənişlərin genişləndirilməsi növbəti ildə də pul siyasətinin effektivliyinə müsbət təsir edən amillər olacaq, monetar siyasətdə iqlim dəyişikliyindən və eləcə də "yaşıl keçid"dən qaynaqlanan inflyasiyanın təsirləri üzrə təhlillər davam etdiriləcək. Mərkəzi Bankın İdarə Heyəti tərəfindən təsdiq edilən "Yaşıl Taksonomiya" perspektivdə zəruri hallarda "yaşıl keçid"ə pul siyasəti ilə də dəstək vermək üçün əsas yaradır. İqlim dəyişikliklərinin makroiqtisadi təsirləri və "yaşıl maliyyə təşəbbüsləri"nin dəstəklənməsi məsələləri diqqətdə saxlanılacaq. İqlim dəyişikliklərinin inflyasiya dinamikasına, iqtisadi artıma və maliyyə sektoruna birbaşa və dolayı təsirləri üzrə qiymətləndirmələr davam etdiriləcək.

Mərkəzi Bank rəqəmsal valyutasının tətbiqi üzrə siyasət məqsədlərinin müəyyən edilməsi, müvafiq yol xəritəsinin hazırlanması üzərində işləri də davam etdirəcək. Bu işlərə prioritet istifadə istiqamətlərinin müəyyənləşdirilməsi, potensial risk və faydaların qiymətləndirilməsi, eləcə də maliyyə sektoru üzrə daha geniş strategiyaya uyğunlaşdırılmış mərhələli tətbiq planının hazırlanması daxildir.

Növbəti ildə də Mərkəzi Bankın faiz dəhlizi iqtisadiyyatda monetar şəraitə təsir göstərən əsas vasitələrindən biri kimi istifadə olunacaq, faiz dəhlizinə dair qərarlar inflyasiyanın xarici və daxili amilləri üzrə risk balansının dəyişimindən, habelə yenilənmiş makroiqtisadi proqnozlardan asılı olaraq qəbul ediləcək. MB hesab edir ki, hazırda uçot dərəcəsi son 4 ilin minimum səviyyəsindədir və neytral faiz dərəcəsinə yaxındır. Cari il ərzində pul siyasəti yumşaldılıb və uçot dərəcəsi 7,25 faizdən 6,75 faizə endirilib. Bu siyasət gələn ildə də davam etdiriləcək və MB-nin 2026-ci ildə faiz dəhlizinin parametrləri ilə bağlı təqribən 8 qərar verəcəyi ehtimal olunur.

***E.CƏFƏRLİ***

# Yeni iqtisadi konfiqurasiya “təxirə düşdü”: Aİ - MERCOSUR müqaviləsi niyə reallaşmır?

## Cənubi Amerika - Orta Asiya əlaqələri gündəmə gəlir: Azərbaycan yenə mərkəzi rolda çıxış edəcək

Qlobal situasiyada yeni nizam qaydaları müəyyənləşməkdədir. Artıq fikir ayrılıqları hərbi strukturdan iqtisadi struktura transfer olunur - qütblərarası mübarizə yeni şəkil alır. Avropa İttifaqı ilə Cənubi Amerika dövlətləri arasında başlanan yeni fikir ayrılığı bunun sübutudur. Belə ki, Avropa İttifaqı (Aİ) ilə Cənubi Amerika Ümumi Bazarı (MERCOSUR) arasında azad ticarət sazişinin imzalanması təxirə salınıb. Avropa Komissiyasının sədri Ursula Fon der Lyayen Avropa İttifaqına üzv 27 ölkənin liderlərinə MERCOSUR ölkələri ilə azad ticarət sazişinin imzalanmasının yanvar ayına qədər təxirə salındığını bildirib. Bu barədə diplomatik mənbələrə istinadən məlumat yayılıb. Qərar Brüsseldə keçirilən Avropa sammiti fonunda qəbul olunub.

Qeyd edək ki, Aİ öz qərarını yerli fermerlərin “etirazları” ilə əsaslandırır. Hətta qərarın verildiyi gün Brüsseldə bir neçə Avropa ölkəsindən olan fermer sazişə etiraz olaraq bütün gün Avropa Komissiyasının binaları qarşısında aksiya keçiriblər. Fermerlər hesab edirlər ki, müqavilənin şərtləri onları Cənubi Amerika ölkələrindən gələn məhsullarla rəqabət qarşısında kifayət qədər qorumur. Ursula Fon der Lyayen razılaşmanı Braziliyanın Fosdu-İquasu şəhərində keçiriləcək MERCOSUR sammiti zamanı imzalamağı planlaşdırsa da, Fransa və İtaliyanın etirazı səbəbilə Brüsseldə lazımi çoxluğu əldə edə bilməyib.

### Etirazların səbəbi...

Ticarət sazişinin ratifikasiyasına qarşı fermerlərin etirazı böyükdür. Fermerlər traktorlarla Belçika paytaxtına daxil olaraq Aİ Şurasının binası istiqamətində yürüş ediblər. Etirazçılar sazişin Avropa fermerləri üçün ədalətsiz rəqabət yaradacağını bildiriblər. Aksiyada on min nəfərin iştirak etdiyi və onların əksəriyyətinin Fransadan gəldiyi bildirilir. Etirazlar, həmçinin Aİ-nin kənd təsərrüfatına ayrılan subsidiyalarda mümkün ixtisarlar və Brüsselin tətbiq etdiyi qaydalara qarşı yönəlib. Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen iclasdan əvvəl Avropa fermer təşkilatı “Copa-Cogeca”nın nümayəndələri ilə görüşüb. Sazişin dekabrın 20-də Braziliyada imzalanması nəzərdə tutulurdu. Sənədlə bağlı danışıqlar isə hələ 1999-cu ildən aparılır. Sazişə əsasən, 700 milyondan çox əhalini əhatə edən Aİ-MERCOSUR azad ticarət zonasının yaradılması nəzərdə tutulur.



### Cənubi Amerika Aİ-yə xəbərdarlıq edir...

Braziliya Prezidenti Lula da Silva da sazişlə bağlı narahatlığını ifadə edib. O, İtaliyanın Baş naziri Corcia Meloni ilə telefon danışığından sonra bir qədər səbirli olmaq lazım gəldiyini bildirib. Meloni isə İtaliyanın yekunda sazişi dəstəkləyəcəyinə dair vəd verib. Xatırladaq ki, Prezident Luiz İnasio Lula da Silva razılaşmanın dekabrın 20-dək Aİ ölkələri tərəfindən təsdiqlənməyəcəyi təqdirdə Braziliyanın sazişdən geri çəkiləcəyini açıqlamışdı. O, İtaliya və Fransanın daxili siyasi səbəblərə görə razılaşmanı təsdiqləmək istəmədiyini vurğulamışdı. “Onları artıq xəbərdar etmişəm: əgər bu razılaşma indi baş tutmasa, mən Prezident olduğum müddətdə Braziliya daha heç bir saziş imzalamayacaq”, - deyə Luiz İnasio Lula da Silva bildirib.

Paraqvay lideri Santyaqo Penya da Aİ-yə xəbərdarlıq edib - o bildirib ki, Aİ azad ticarət sazişinin imzalanmasını təxirə salmağa davam etsə, MERCOSUR ölkələri Orta Asiyaya yeni ixrac imkanlarını nəzərdən keçirməyə hazırdırlar. Paraqvay lideri bunu Braziliyada keçirilən birlik sammitində deyib. “Biz sadəcə otura və Aİ-nin qərarını gözləyə bilmərik. Hesab edirəm ki, oxşar sazişlər bağlaya biləcəyimiz bir çox başqa ölkələr var. Mərkəzi Asiya ölkələri ilə münasibətlərdə böyük imkanlar görürük”, - o deyib.

Dövlət başçısının sözlərinə görə, Aİ ölkələri hələ də azad ticarət sazişinin Cənubi Amerika iqtisadi birliyindən daha çox özlərinə daha çox ehtiyac duyduqlarını başa düşməyiblər. “Biz sanki qurbangahda gəlini gözləyən kürəkən rolundayıq”, - Penya deyib.

### MERCOSUR Orta Asiya əlaqələrinin perspektivi...

Nəzərə alsaq ki, bu ilin noyabrından Azərbaycan da rəsmən Mərkəzi Asiya birliyinə qoşulub, Paraqvay liderinin sözlərinə diqqət yetiirmək vacibdir - o baxımdan ki, Paraqvay prezidentinin açıqlaması əslində qlobal ticarətdə istiqamət dəyişikliyinin açıq siqnalıdır. Aİ-MERCOSUR azad ticarət sazişinin illərlə ləngiməsi həqiqətən də Latın Amerikasını alternativ bazarlara yönəldir və bu kontekstdə Orta Asiya-Cənubi Qafqaz xətti strateji əhəmiyyət qazanır. Azərbaycan isə bu prosesdə kənar müşahidəçi yox, potensial əsas qovşaq ölkədir. Başqa sözlə, Azərbaycan - MERCOSUR üçün “qapı ölkə” sayılır. Azərbaycanın Orta Asiya ilə siyasi-iqtisadi inteqrasiyası, Türk Dövlətləri Təşkilatında rolu və Xəzər hövzəsindəki mövqeyi MERCOSUR ölkələri üçün:

- Orta Asiya bazarlarına ən qısa və təhlükəsiz çıxış,
- Avropa bazarlarına alternativ Şərq-Qərb tranzit xətti deməkdir.

Bu, Azərbaycanın regional ticarət qovşağı rolunu möhkəmləndirir, tranzit və logistika gəlirlərini artırır.

Paralel olaraq Orta Dəhliz üzərindən yeni ixrac axınları başlayır - MERCOSUR ölkələri (Braziliya, Argentina, Paraqvay, Uruqvay) əsasən kənd təsərrüfatı məhsulları, ət və soya, sənaye xammalı ixrac edir. Bu məhsulların Orta Dəhliz (Çin-Orta Asiya-Xəzər-Azərbaycan-Avropa) üzərindən daşınması Azərbaycanın logistika sektoruna uzunmüddətli dividentlər gətirə bilər.

Beləliklə, MERCOSUR-Orta Asiya yaxınlaşması Azərbaycan üçün tranzit ölkədən regional ticarət mərkəzinə keçid, yeni ixrac bazarları, alternativ iqtisadi tərəfdaşlıq kimi ciddi dividentlər vəd edir. Başqa sözlə, Aİ-nin tərəddüdü fonunda formalaşan bu yeni ticarət konfiqurasiyası Azərbaycan və Orta Asiya üçün strateji imkan yarada bilər.

### İnteqrasiya ittifaqı, azad münasibətlər sistemi...

Qeyd edək ki, MERCOSUR Argentina, Braziliya, Paraqvay, Uruqvay və Venesuela arasında iqtisadi və siyasi müqavilədir. Müqavilə sərbəst ticarət, mal, insan və pul axını hərəkətini təşviq edir. Müqavilənin assosiativ üzvləri Boliviya, Çili, Kolumbiya, Ekvador və Perudur. Müşahidəçi üzvlər isə Meksika və Yeni Zelandiyadır. İspan dilindən tərcümədə birlik “Cənub konusunun ümumi bazarı” adlanır. Təşkilatın qərargahı Montevideo (Uruqvay) şəhərində yerləşir. Merkosurun strateji məqsədi-qarşılıqlı intensiv ticarət, investisiyanın effektiv istifadəsi əsasında üzvlərinin iqtisadi artımına zəmanət verən birliyin yaradılması, həmçinin subregionların beynəlxalq rəqabət qabiliyyətliliyinin artırılmasıdır.

Yaranma tarixinə gəldikdə isə, 1960-cı illərin sonunda baş vermiş iqtisadi və siyasi böhranın ardından Cənubi Amerikada inteqrasiya proseslərinə maraq artmağa başladı. 1986-cı ildə Argentina və Braziliya - Latın Amerikasının iqtisadi cəhətdən güclü iki dövləti iqtisadi əməkdaşlıq və davamlı inteqrasiyanın inkişafı haqqındakı birgə layihələrini irəli sürdülər və başqa ölkələrin bura qatılmasının açıq olduğunu elan etdilər. Bundan sonra Uruqvay və Paraqvay da tez vaxtda onlara qoşuldular. 1991-ci ilin mart ayında Paraqvayın Asunsone şəhərində gömrük birliyi və ümumi bazar - MERCOSUR-un yaradılması haqqında dördtərəfli müqavilə imzalandı. Amma ölkələr arasındakı real ticarət bloku 1995-ci ildən qanuni qeydiyyata alındı.

Təşkilatın prestiji qalxmağa başladıqca digər Cənubi Amerika dövlətləri də buraya qoşulduü - 1996-cı ildə Boliviya, 2000-ci ildə isə Çili assosiativ üzvlər kimi təşkilata qoşuldular. 2002-ci ildə isə Venesuela da bu təşkilata üzv qəbul edildi.

MERCOSUR-un əsas idarəedici orqanı Ümumi bazar şurasıdır. Onlar periodik olaraq dövlət başçıları və ya xarici işlər nazirlikləri səviyyəsində görüşürlər və inteqrasiyanın inkişafı ilə bağlı siyasi planlarını həyata keçirirlər. Əsas icraedici orqan isə Ümumi bazar qrupudur. Ümumi bazar qrupu Montevideoda (Uruqvay) inzibati katibliyə və eləcə də birbaşa özünə tabe olan 10 texniki komissiyaya malikdir. Bu komissiyalar ticarətlə, gömrük tənzimlənməsi ilə, texniki normalarla, valyuta-maliyyə siyasəti ilə, makroiqtisadi siyasətlə, quru və dəniz nəqliyyatı ilə, sənaye texnologiyaları ilə, kənd təsərrüfatı və energetika ilə bağlı məsələlərlə məşğul olurlar.

***P.İSMAYILOV***

# Əlcəzair parlamentindən Fransaya zərbə

## Fransanın müstəmləkə siyasətinin cinayət kimi tanınması haqda qanun qəbul olunub

**Özünü demokratiyanın beşiyi kimi təqdim etməyə çalışan Fransanın, əslində, tarixən müxtəlif xalqlara qarşı müstəmləkəçilik siyasəti həyata keçirdiyi bütün dünyaya məlumdur. Fransa bir sıra xalqları hələ də öz müstəmləkəsi altında saxlayır. Bu dövlətin müstəmləkəçilik siyasətinin tarixi yüz illərə gedib çıxır.**

### Kolonializm siyasəti Fransanın gerçək üzüdür

Bəşəriyyətin kolonializm tarixinin qanlı cinayətlərinin çoxu məhz Fransa tərəfindən törədilib. Afrika, Cənub-Şərqi Asiya, Sakit Okean, Latın Amerikasında onlarla ölkəni işğal altına alan, sərvətlərini talan edən, xalqlarını uzun illər ərzində əsarətdə saxlayan Fransa həmin ərazilərdə hərbi və bəşəriyyət əleyhinə çoxsaylı cinayətlər törədib, fransız silahlı qüvvələri etnik və dini mənsubiyyətinə görə yüz minlərlə dinc sakini soyqırımına məruz qoyub. Bütövlükdə, Fransanın müstəmləkəçilik siyasəti həmin xalqlara yaxşı heç nə gətirməyib. Onlar sivilizasiyadan geri qalıblar, sərvətləri talanıb Fransaya daşınan ölkələr asılı vəziyyətə düşüblər, diskriminasiya nəticəsində yerli xalqlar milli kimliklərini itirmək təhlükəsi ilə üzləşiblər.

Fransa istilalar sayəsində Afrikanın qərbində və şimalında 20-dən çox ölkəni öz təsir dairəsinə qatmağa nail olub. Afrikanın ərazilərinin təxminən 35 faizi 300 il ərzində tamamilə Fransanın nəzarətində qalıb. Təbii ki, zaman ötdükcə Fransa müstəmləkəçilik siyasətində müəyyən forma dəyişiklikləri etmək məcburiyyətində qalıb. Ancaq zaman və forma dəyişsə də, ənənəvi müstəmləkəçilik neokolonializmlə əvəzlənsə də, bu siyasətin mahiyyəti dəyişməyib. Fransa Seneqal, Niger, Kamerun və Mavritaniya kimi bir çox Afrika ölkələrində, xüsusilə də Əlcəzair və Ruandada daxili qarşıdurma və soyqırımı üçün məsuliyyət daşıyır.

Bu ölkənin müstəmləkəçilik siyasətindən ən çox əziyyət çəkənlər arasında Əlcəzair xalqı da var. Tarixi məlumatlara görə, Fransa Əlcəzairdə XVII əsrdən XIX əsrin 30-cu illərinədək 4 milyon nəfərdən çox, təkcə 1890-cı ildə isə 2 milyon 500 min insanı qətlə yetirib. Fransızlar bu ölkədə yerli sakinləri ərəb kimliyindən və islamdan imtina edərək Fransa təbəəliyini güc yolu ilə qəbul etdirməyə çalışıblar.

Əlcəzair xalqına qarşı törədilən cinayətlər İkinci Dünya müharibəsi başa



çatandan sonra da davam etdirilib. Belə ki, 1945-ci ildə Fransa qoşunları Əlcəzairin Setif və Guelma qəsəbələrində 45 mindən çox günahsız insanı qanına qəltan edib. Qanlı “keçmişi”ni unutmaq üçün rəsmi Paris son üç əsrdə törətdiyi soyqırımları ilə bağlı arxiv sənədlərini məhv etsə də, 140 il ərzində öz azadlığı uğrunda mübarizə aparan əlcəzairlilərin qətli faktını gizlətmək mümkün olmayıb.

### Yeni qanun Fransadan təzminat tələb edir

1966-1996-cı illərdə isə Fransa Əlcəzairdə 210 dəfə nüvə sınağı həyata keçirib. Əlcəzair hökumətinin məlumatına əsasən, nüvə sınaqları zamanı 18 min hərbçi və mülki şəxsə ziyan dəyib. Nüvə sınaqlarından zərərçəkənlərin əksəriyyəti sonrakı bir neçə il ərzində həyatlarını itiriblər. 2010-cu ildə Fransada nüvə sınaqları qurbanlarına təzminatın ödənilməsi barədə qanun qəbul edilsə də, rəsmi Paris yalnız 20 nəfərə kompensasiya verib.

Əlbəttə, Fransa törətdiyi cinayətlərə görə cavab verməlidir. Yeri gəlmişkən, Əlcəzairin Xalq Milli Assambleyası dekabrın 24-də Fransanın Əlcəzairdəki müstəmləkəçilik siyasətini cinayət kimi tanıyan qanun layihəsini yekdilliklə qəbul edib. Təxminən 30 maddədən ibarət olan sənəd plenar iclasda bütün deputatların iştirakı ilə səsə qoyulub və tam razılıqla təsdiqlənib.

Qanun layihəsi beynəlxalq hüququn prinsiplərinə və Əlcəzair Konstitusiyasına əsaslanır. Sənəd xalqların öz müqəddəratını təyinetmə hüququnu, tarixi ədalətin bərpasını və müstəmləkə cinayətlərinin cəzasız qalmamasını ön plana çəkir. Layihə 1830-cu il iyunun 14-dən 1962-ci il iyulun 5-dək Fransanın Əlcəzairdə həyata keçirdiyi müstəmləkə siyasətini, eləcə də onun birbaşa və dolayı nəticələrini cinayət kimi qiymətləndirir. Müzakirələrdən sonra sənədə bir sıra dəyişikliklər edilib. Müstəmləkə cinayətləri sırasına dövlətə qarşı təcavüz, mülki əhalinin qətli, işgəncə, qadağan olunmuş silahlardan istifadə və yerli əhaliyə qarşı ayrı-seçkilik xarakterli faktlar da daxil edilib. O cümlədən Əlcəzair səhrasında aparılan nüvə sınaqları da qanunla cinayət hesab olunur.

### Fransa Əlcəzairdən üzr istəyəcəkmi?

Şimali Afrika ölkəsi keçmiş metropoliyadan müstəmləkəçilik keçmişinə görə rəsmi üzr istəməsini və təzminat ödənilməsini tələb edəcək. Bildirilib ki, Fransanın müstəmləkə hakimiyyəti əhaliyə ərəb dilində təhsil almağı qadağan edib, məcburi xristianlaşdırma aparıb və Birinci və İkinci dünya müharibələri dövründə minlərlə əlcəzairlini Fransa Silahlı Qüvvələrinin sıralarına kütləvi şəkildə səfərbər edib. Qanunda qeyd olunur ki, “Fransanın Əlcəzairdəki müstəmləkəçiliyi insanı, siyasi, iqtisadi və mədəni dəyərləri pozan dövlət cinayətidir”. Eyni zamanda, Əlcəzair dövlətinin bu dövrə aid tarixi faktların üzə çıxarılması və yayılması üçün çalışacağı vurğulanır.

Qeyd edək ki, müstəmləkəçiliyin qanunla cinayət kimi tanınması ideyası Əlcəzairdə ilk dəfə 1984-cü ildə ortaya çıxsa da, uzun illər müxtəlif maneələrlə üzləşib. Sonrakı illərdə - 2001, 2005, 2006, 2017, 2020 və 2021-ci illərdə də oxşar təşəbbüslər irəli sürülüb. Sözügedən qanunun qəbulu isə Əlcəzair və Fransa arasında 2024-cü ilin yayından bəri davam edən diplomatik böhran fonunda baş verir. Tarixi müstəmləkə irsi iki ölkə arasında münasibətləri uzun illərdir gərgin saxlayır. Əlcəzair rəsmi Parisdən müstəmləkə dövründə törədilmiş cinayətlərin tanınmasını tələb etsə də, Fransa bu çağırışlara indiyədək müsbət cavab verməyib.

Əlcəzair Fransanın işğalı altında 130 ildən çox qalıb. 1962-ci ildə milli-azadlıq müharibəsi nəticəsində ölkə müstəqillik qazanıb.

***Nardar BAYRAMLI***

# 5 gün qaldı...

## Suriyada yeni gündəm

Qlobal miqyasda formalaşmaqda olan yeni dünya nizamı əvvəlki onilliklərdən fərqli olaraq hərbi-siyasi qarşıdurmalardan daha çox iqtisadi və ticari maraqlar üzərində qurulur. Dövlətlərarası münasibətlərin mərkəzinə enerji təhlükəsizliyi, nəqliyyat-logistika xətləri, ticarət marşrutları və investisiya axınları çıxarılır. Belə bir şəraitdə terrorizm amili artıq regional və qlobal proseslər üçün ciddi maneə kimi qəbul edilir və bu təhlükənin gündəmdən birdəfəlik çıxarılması faktiki olaraq zərurətə çevrilir. Sirr deyil ki, əvvəlki dönəmdə bəzən güclərarası rəqabətdə terror qruplarından alət kimi istifadə praktikasına müraciət olunurdu - artıq bu da arxa plana keçir. Çünki qeyri-sabitlik yaradan bu strukturlar iqtisadi inkişaf modellərinə, uzunmüddətli əməkdaşlıqlara

### Türkiyə "SDQ"-nin ləğvinə başlaya bilər

və regional inteqrasiyaya birbaşa təhlükə yaradır.

Məhz bu reallıqlar fonunda illərlə müxtəlif regionlarda fəaliyyət göstərən terror qruplaşmalarının zərərsizləşdirilməsi məsələsi daha sərt və prinsipial yanaşma tələb edir. Xüsusilə Yaxın və Orta Şərq kimi geosiyasi baxımdan həssas bölgələrdə terrorçuluğun qalması nəinki regional ölkələrin, həm də qlobal iqtisadi maraqların təhlükəsizliyinə ciddi zərbə vurur. Bu baxımdan terrora qarşı mübarizə artıq təkcə təhlükəsizlik məsələsi deyil, yeni dünya nizamının iqtisadi əsaslarının qorunması kimi çıxış edir.

### Türkiyənin terrorla mübarizədə artan rolu

Bu kontekstdə Yaxın və Orta Şərqdə daha genişmiqyaslı və koordinasiyalı fəaliyyətin zəruriliyi açıq şəkildə ortaya çıxır. Xüsusilə Türkiyənin uzun illərdir bölgədə terrorizmə qarşı apardığı ardıcıl və prinsipial mübarizə regional təhlükəsizlik arxitekturasının əsas sütunlarından biri kimi dəyərləndirilir. Ankara üçün terror yalnız daxili təhlükəsizlik problemi deyil, eyni zamanda, regionun gələcək inkişaf perspektivlərinə yönəlmiş ciddi təhdiddir. Bu səbəbdən Türkiyə terrorla mübarizədə kompromissiz mövqe sərgiləyir.

Son illərdə bu mübarizə daha sərt, daha sistemli və daha genişmiqyaslı xarakter alıb. Xüsusilə Suriyada həyata keçirilən antiterror əməliyyatları, sərhəd təhlükəsizliyinin möhkəmləndirilməsi və terrorçuların logistik imkanlarının məhdudlaşdırılması bu strategiyanın əsas tərkib hissələridir. Suriyada ötən il baş verən hakimiyyət dəyişikliyi isə bölgədə yeni reallıqlar formalaşdırmaqla terror qruplaşmalarının ləğvini daha da aktuallaşdırıb. Bu prosesdə PKK-nın Suriya qolu olan YPG-nin mövcudluğu həm Türkiyə, həm də Suriya üçün əsas təhlükə mənbəyi olaraq qalır və onun aradan qaldırılması regional sabitliyin açar məsələlərindən biri kimi çıxış edir.

### Razılaşma pozularsa...

Qeyd edək ki, ötən ilin martın 10-da Suriya hökuməti ilə YPG terror qruplaşması arasında imzalanmış razılaşma sənədi bölgədə terrorun mərhələli şəkildə neytrallaşdırılması baxımından mühüm addım kimi təqdim olunmuşdu. Sənədə əsasən PKK-nın Suriya qolu dövlət silahlı qüvvələrinə inteqrasiya etməli, silahlı fəaliyyətini dayandırmalı və mərkəzi hakimiyyətin nəzarətinə keçməli idi.

8 maddədən ibarət müqavilədə aşağıdakılar öz əksini tapmışdı:

1. Dini və etnik mənşəyindən asılı olmayaraq, bütün suriyalıların ləyaqət əsasında təmsil olunma və siyasi iştirak hüquqlarının təmin edilməsi.

2. Kürd icmasının Suriyanın tərkib hissəsi kimi tanınması və onların konstitusiya hüquqlarının təmin edilməsi.

3. Bütün Suriya ərazisində atəşkəs.

4. Suriyanın şimal-şərqində sərhəd keçid məntəqələri, hava limanları, neft və qaz yataqları daxil olmaqla bütün mülki və hərbi qurumların dövlət idarəsi altında inteqrasiyası.




5. Bütün köçkün suriyalıların dövlət himayəsi altında öz vətənlərinə qayıtmasının təmin edilməsi.

6. Suriyanın Əsədin qalıqlarına və onun təhlükəsizliyinə və birliyinə qarşı bütün təhdidlərə qarşı mübarizəsini dəstəkləmək.

7. Bölünmə çağırışlarını, nifrət ifadələrini və nifaq salmaq cəhdlərini rədd etmək.

8. İcra komitələri müqavilənin ilin sonuna qədər qüvvəyə minməsi üçün çalışacaqlar.

Lakin dekabrın 31-də "SDQ" adı altında fəaliyyət göstərən bu qruplaşmaya verilən möhlətin başa çatmasına baxmayaraq, razılaşmanın şərtləri yerinə yetirilməməkdədir. Əksinə, terrorçular müxtəlif bəhanələrlə silahların təhvil verilməsindən və fərdi qaydada dövlət strukturlarına inteqrasiyadan imtina etdilər. "SDQ"-nin Suriyanın şimalında, xüsusilə Hələbdə Razi körpüsünü və yaşayış məntəqələrini hədəfə alması terrorun yenidən aktivləşdirilməsi cəhdi kimi qiymətləndirilir. Dinc sakinlərin ölümü və yaralanması, mülki infrastruktura dəyən ziyan bu qruplaşmanın real niyyətini bir daha ortaya qoyur və regionda sabitliyin qarşısında ciddi maneə yaratdığını sübut edir.

### Ankara-Dəməşq xəttində yeni mərhələnin başlanğıcı

Mövcud vəziyyət fonunda Türkiyə rəsmilərinin terrorçuların "yuvalarını başlarına yıxacağıq" bəyanatları sadəcə siyasi ritorika deyil, konkret və ardıcıl strategiyanın ifadəsidir. Bu baxımdan Suriyadakı terrorçuların məhvi istiqamətində atılacaq addımlar tamamilə real görünür. Dekabrın 31-i bölgədə yeni hadisələrin başlanğıc nöqtəsi kimi dəyərləndirilə bilər. Çünki bu tarixdən sonra terror qruplaşmalarına verilən siyasi və hüquqi imkanlar faktiki olaraq tükənmiş sayılır.

Yeri gəlmişkən, Türkiyənin xarici işlər naziri Hakan Fidan, milli müdafiə naziri Yaşar Gülər və Milli Kəşfiyyat İdarəsinin (MİT) başçısı İbrahim Kalın Suriyanın paytaxtı Dəməşqdə ölkə Prezidenti Əhməd əş-Şaraa və başqa rəsmilərlə görüşündə də bu amillər ön planda tutulub. Vurğulanıb ki, rəsmi Ankaranı yaxından maraqlandıran əsas məsələlərdən biri də 2025-ci il martın 10-da Suriya hakimiyyəti ilə PKK terror qruplaşmasının bu ölkədəki qolları YPG/PYD-nin təsis etdiyi "SDQ" ("Suriya Demokratik Qüvvələri") arasında imzalanmış sazişin icra vəziyyətidir.

Bu təmasların intensivləşməsi təsadüfi deyil. Türkiyə rəsmilərinin Suriya paytaxtına səfərləri iki ölkə arasında münasibətlərin normallaşması ilə yanaşı, regionda terrora qarşı yeni təhlükəsizlik mexanizmlərinin formalaşdırılması məqsədi daşıyır. Bu ziyarətlər Türkiyə-Suriya xəttində qarşılıqlı etimadın bərpası və bölgənin gələcək taleyinin terrorçulardan təmizlənmiş şəkildə qurulması niyyətini ortaya qoyur. Beləliklə, region yeni təhlükəsizlik və əməkdaşlıq mərhələsinə qədəm qoyur.

Beləliklə, Yaxın və Orta Şərqdə terror qruplaşmalarının mövcudluğu təkcə təhlükəsizlik problemi deyil, eyni zamanda, iqtisadi inkişaf, investisiya mühiti və regional inteqrasiya üçün ciddi əngəldir. Türkiyənin bu istiqamətdə apardığı prinsipial mübarizə regionda sabitliyin təmin olunmasına yönəlmiş strateji xətt kimi çıxış edir. Çünki yarana biləcək hər hansı boşluq daha böyük təhlükələrə yol açır - məsələn, yaranmış boşluqlardan istifadə edərək İŞİD qruplaşması btir müddət öncə Suriyada ABŞ və hökumət hərbçilərinə,

### Yaranan boşluqdan istifadə etməyə çalışırlar

təhlükəsizlik qüvvələrinə hücum edib. Palmiradakı hücum nəticəsində iki əsgər və bir mülki tərcüməçi ölüb. Habelə, ABŞ-nin üç və Suriyanın iki əsgəri də yaralanıb. Düzdür, ABŞ terrorçulara qarşı genişmiqyaslı bombardman həyata keçirdi, bununla belə sabitliyin mümkün təmini üçün bu kimi qruplaşmalar tam şəkildə aradan qalıdırlmalıdır...

***S.İSMAYILZADƏ***

# Dondurulmuş milyardlar, sarsılan hüquq: Avropanın öz əliylə qurduğu tələ

Avropada dondurulmuş Rusiya maliyyə aktivlərinin taleyi artıq texniki məsələ deyil. Bu mövzu beynəlxalq hüququn sütunlarını, qlobal maliyyə sisteminin etibarlılığını və Avropanın özünü qanunun aliliyinin qalası kimi təqdim edən siyasi kimliyini birbaşa sınağa çəkir. Söhbət yüz milyardlarla avrodan gedir və bu vəsaitlərin Ukraynanın maliyyələşdirilməsində istifadəsi ideyası emosional baxımdan cəlbedici səslənsə də, hüquqi və institusional baxımdan son dərəcə təhlükəli presedent yaradır.

Burada əsas, lakin bilərəkdən kölgədə saxlanan məsələ aktivlərin dondurulması (freezing of assets) ilə onların müsadirəsi (confiscation / expropriation) arasındakı fundamental hüquqi fərqdir. Dondurma beynəlxalq sanksiyalar rejimi çərçivəsində müvəqqəti tədbir kimi əsaslandırıla bilər. O, mülkiyyət hüququnu formal olaraq ləğv etmir, yalnız aktivlər üzərində sərəncam hüququnu məhdudlaşdırır. Müsadirə isə artıq mülkiyyətin özünə toxunur və beynəlxalq hüquqda yalnız çox məhdud, istisna hallarda - adətən məhkəmə qərarı və fərdi məsuliyyət əsasında mümkündür. Dövlətin dövlətə qarşı kollektiv şəkildə mülkiyyət hüququnu ləğv etməsi isə faktiki olaraq hüquqi nihilizmdir.

Məhz bu səbəbdən Belçika, Avropa Mərkəzi Bankı və bir sıra Aİ üzv dövlətləri bu təşəbbüsə açıq və ya örtülü şəkildə müqavimət göstərir. Onlar emosional siyasi çağırışlardan deyil, sistemli risk hesablamasından çıxış edirlər. Çünki Avropa Mərkəzi Bankı üçün məsələ yalnız Ukraynaya yardım deyil; məsələ avronun etibarlılığı, Avropa maliyyə sisteminin predictability və legal certainty prinsiplərinin qorunmasıdır. Hüquqi sabitlik olmadan maliyyə sabitliyi mümkün deyil. Siyasi bəyanatlar isə tam fərqli mənzərə yaradır. Bəzi Avropa liderləri "ədalətin bərpası", "təcavüzkarın ödəməsi" kimi pafoslu şüarlarla çıxış edir. Lakin bu ritorikanın arxasında çox vaxt hüquqi mexanizm deyil, daxili ictimai rəy və populist təzyiq dayanır. Siyasi diskurs qısamüddətli mənəvi rahatlıq vəd edir, lakin uzunmüddətli sistem risklərini ya görməzliyə vurur, ya da bilərəkdən susdurur. Bu isə Avropanın öz prinsipləri ilə ziddiyyətə girməsi deməkdir.

Ən təhlükəli məqam presedent məsələsidir. Əgər Avropa siyasi məqsədlərlə suveren dövlətin mərkəzi bank ehtiyatlarını və ya dövlət fondlarını müsadirə edərsə, bu addım qlobal maliyyə sistemində geridönməz nəticələr doğura bilər. State immunity, sovereign assets protection və inviolability of central bank reserves kimi anlayışlar de-fakto mənasını itirər. Bu zaman heç bir dövlət öz ehtiyatlarını Avropa yurisdiksiyasında təhlükəsiz hesab etməz. Bu, artıq hipotetik risk deyil, bazarların soyuq hesablamalarıdır.

Real vəziyyət göstərir ki, bir sıra qeyri-Qərb ölkəsi artıq ehtiyatlarını diversifikasiya etməyə başlayıb. Avropa bankları və depozitarları "təhlükəsiz liman" statusunu itirdikcə kapital axınları alternativ maliyyə mərkəzlərinə - Asiya, Yaxın Şərq və hətta regional valyuta mexanizmlərinə yönələ bilər. Bu, Avropanın qlobal maliyyə mərkəzi kimi reputasiyasına vurulan ən ağır zərbə olar. Avropa öz əli ilə onilliklər ərzində qurduğu etimad kapitalını bir siyasi qərarla məhv etmiş olar. Bu gün müsadirə edilən Rusiya aktivləridir, sabah isə hansı dövlətin və hansı səbəblə hədəf alınacağı bəlli deyil. Beynəlxalq hüquqda selektiv tətbiq prinsipi hüququ norma olmaqdan çıxarıb alətə çevirir. Alətə çevrilmiş hüquq isə artıq hüquq deyil, güc siyasətinin dekorasiyasıdır.



### Dünya siyasətçilərinin mövqeləri

Bu, siyasi baxımdan son dərəcə həssas məsələdir. Liderlər arasında fikir ayrılığı var, müxtəlif ölkələrin rəhbərləri fərqli arqumentlər irəli sürürlər. "Əl-Cəzirə"nin qeyd etdiyi kimi, Belçika bu aktivlərin istifadəsinə qarşı çıxır və əsas narahatlığı hüquqi risklər, potensial mübahisələr və Rusiyanın əldə bayraq etdiyi "hüquq mülkiyyətinə zərbə" ritorikasıdır. Macarıstan da bu məsələni Aİ sammitinin rəsmi gündəliyindən çıxarıb və aktivlərin müsadirəsi ideyasını dəstəkləməyib. "Gardian"ın yazdığına görə, İtaliya böyük risklərə diqqət çəkərək, aktivlərin istifadəsi üçün sabit hüquqi bazanın olmadığını vurğulayıb. Digər Avropa ölkələri - Çexiya, Estoniya və Polşa aktivlərdən istifadə olunmasını, bu vəsaitlərin Ukraynaya yardım üçün yönəldilməsini müdafiə edirlər (məsələn, Polşanın Baş naziri Donald Tusk bu ideyanı açıq şəkildə dəstəkləyib). "Financial Times" qəzetinin yazdığına görə, G7 və Qərb ölkələri, Böyük Britaniya və Kanada aktivlərin istifadəsinə qismən tərəfdar idi, lakin hüquqi maneələr və potensial sanksiya riskləri bu planları reallaşdırılmamış qoyub. ABŞ isə bəzi şərtlərlə sülh sazişi imzalandıqdan sonra aktivlərin geri qaytarılmasını dəstəkləyəcəyini bildirib, lakin bu yanaşma yalnız sülh danışıqlarının nəticəsinə bağlıdır.

"Reuters"in yazdığına görə, Rusiya rəhbəri Vladimir Putin və Kreml nümayəndələri bu aktivlərin müsadirəsini "soyğunçuluq" və "hüquq pozuntusu" kimi qiymətləndirirlər, Avropa liderlərini qanuni mexanizmlərə zidd addımlar atmaqda ittiham edirlər. Moskva eləcə də bu məsələdə sanksiyalara qarşı çıxış edir və öz tərəfdarı ölkələrdə qərarların geri götürülməsi üçün kampaniyalar aparır.

Ukraynanın baxışı isə fərqlidir: prezident Volodimir Zelenski bu aktivlərin tam şəkildə istifadəyə yönəldilməsinin vacibliyini bəyan edib, bunu "Rusiya təcavüzünün maliyyə hesabı" kimi qələmə verib. Bəzi rəsmilər aktivlərin səfərbər olunmasının Ukraynada təmir və bərpa xərclərini qarşılayacağını vurğulayırlar.

### Rusiya aktivləri harada və nə qədər dondurulub

"Əl-Cəzirə" və digər informasiya mənbələrinin verdiyi məlumata görə, Rusiya Mərkəzi Bankı və dövlətə məxsus digər vəsaitlərin dünya üzrə dondurulmuş həcmi təxminən 260-300 milyard avro ətrafındadır. Bunların əksəriyyəti Avropa İttifaqı və G7 ölkələrində yerləşir. Avropa İttifaqında ümumilikdə təxminən 210 milyard avro səviyyəsində Rusiya aktivi dondurulub. ABŞ və dünyanın digər ölkələrində Rusiyanın sanksiyalaşdırılmış aktivlərinin ən böyük həcmi Belçikada olub, aşağı-yixarı 180-193 milyard avro təşkil edir, daha sonra Yaponiyada təxminən 28 milyarda yaxın vəsait dondurulub. Bundan başqa, Böyük Britaniyada 27-32 milyard, Fransada təxminən 19-30 milyard, Kanadada 15,1 milyard, Lüksemburqda 10 milyard, İsveçrədə 6,2 milyard, ABŞ-da isə 4.3-5 milyard avro sanksiyalar altına düşərək dondurulub. Digər ölkələrdə də müəyyən həcmdə dondurulmuş vəsaitlər var, lakin ən böyük pay Avropa Birliyi daxilində cəmlənib. Bu aktivlər Rusiya dövlətinin valyuta ehtiyatları və mərkəzi bank rezervlərini ifadə edir və rəsmi statusda hələ də Moskvanın mülkiyyətində qalır - yalnız qeyri-müsadirə şəklində "dondurulub".

### Siyasi və hüquqi narahatlıqlar

Avropa ölkələrinin əksəri aktivlərin müsadirəsi ideyasına qarşı aşağıdakı əsas arqumentləri irəli sürür:

* Hüquqi qeyri-müəyyənlik: aktivlərin müsadirəsi beynəlxalq hüquqda açıq formada nəzərdə tutulmayıb, bu isə Rusiya tərəfinin beynəlxalq hüququn pozulması iddialarını gücləndirir.

* Maliyyə riskləri: aktivlərə toxunulması Avropanın maliyyə institutlarına etimadı sarsıda, beynəlxalq investorların Avropa bazarlarından çıxmasına səbəb ola bilər.

* Retaliasiya riski: Moskva cavab olaraq Qərbin vətəndaş və dövlət aktivlərini rəsmən məhkəməyə verə, yaxud müsadirə etmək üçün addımlar ata bilər.

* İqtisadi təhlükəsizlik: ölkələr öz investisiyalarının qorunacağını təmin etmədən belə bir presedent yaratmaq istəmirlər.

Hər bir lider və dövlət bu məsələdə hüquqi risklər, siyasi məsuliyyət və geosiyasi balansı nəzərə almaq məcburiyyətindədir. Nəticə etibarilə Rusiya aktivləri dünya üzrə yüz milyardlarla avro həcmində dondurulub. Lakin bu aktivlərin hansı ölkədə nə qədər olması və onlardan necə istifadə olunacağı məsələsi siyasi razılıq, hüquqi əsas və geosiyasi strategiyanın qovuşduğu mürəkkəb sahədir. Liderlərin mövqelərində hüquq, risk və siyasi strategiya arasında ciddi ziddiyyətlər qalmaqdadır, bu məsələ qlobal maliyyə sistemi və hüquqi sistem üçün presedentə çevrilmə riski daşıyır.

### Beynəlxalq hüququn ikili tətbiqi

Beynəlxalq hüquq dövlətlərin ərazi bütövlüyünü qorumağa yönəlmiş bir çox əsas prinsipi özündə cəmləyir. Hər bir dövlətin ərazi bütövlüyü beynəlxalq hüququn fundamental prinsiplərindən biridir. Ancaq Avropanın və bəzi beynəlxalq güclərin vaxtilə Ermənistanın işğal etdiyi ərazilərlə bağlı sərgilədiyi passiv və ikili yanaşma beynəlxalq hüququn özünün bu prinsipləri ilə ziddiyyətə girdiyini göstərdi. İkili standartlar siyasəti beynəlxaq hüquqla məşğul olan mütəxəssislərdə çox böyük siyasi və etik suallar doğurur: nə üçün bu gün Rusiya aktivlərinin dondurulmasından ağız dolusu danışan siyasətçilər Ermənistanın aktivlərinin dondurulmasından danışmırdılar? Məgər Ermənistan da təcavüzkar deyildimi? Nə üçün bəzi təcavüzkar dövlətlərə qarşı daha sərt tədbirlər görülür, digərləri isə sülh və diplomatiya adı altında himayə olunur? Bu, beynəlxalq hüququn və ədalətin düzgün tətbiqinə qarşı bir təhdiddir. Azərbaycan ərazilərinin işğalına son qoymaq üçün real addımlar atılmadı, Ermənistana qarşı heç bir ciddi beynəlxalq təzyiq və ya sanksiya tətbiq edilmədi. Bu kimi hallar əsasən geosiyasi maraqlar, iqtisadi əlaqələr, erməni lobbisinin təsiri və beynəlxalq hüququn ikili tətbiqi ilə izah oluna bilər. Bu gün Azərbaycan işğaldan azad etdiyi ərazilərini çox böyük vəsait xərcləməklə bərpa edir. Bu vəsait ölkəmizə Ermənistanın xaricdəki aktivlərinin hesabına gəlməliydi, lakin Avropanın ikili standartları bunun qarşısını alır. Avropa siyasi və strateji üstünlüklərini qorumaq üçün dövlətlərə qarşı fərqli siyasət sərgiləyir, bu isə bəzən beynəlxalq hüququn və ədalətin tələblərini təmin etməyi çətinləşdirir.



***Kəramət QƏNBƏROV,***
***Beynəlxalq hüquq üzrə ekspert***

# Kiyev prezident seçkilərinə hazırlaşır?

Rusiya-Ukrayna müharibəsi ilə bağlı sülh prosesi beynəlxalq müstəvidə əsas müzakirələrdən biridir. Belə bir şəraitdə Ukraynada prezident seçkilərinin keçirilməsi yenidən gündəmə gəlib. Artıq Ukrayna Ali Radası hərbi vəziyyət şəraitində mümkün prezident seçkilərinin hazırlanması üçün işçi qrupu yaradır. Bu barədə parlamentdə "Xalqın xidmətçisi" fraksiyasının rəhbəri David Araxamiya öz teleqram kanalında bildirib. "İlkin razılaşmaya əsasən, hərbi vəziyyət şəraitində mümkün prezident seçkilərinin keçirilməsi məsələsinin operativ müzakirəsi üçün Ukrayna Ali Radasında işçi qrupu formalaşdırılır", - deyə o yazıb.

## Ali Rada seçkilərlə bağlı işçi qrupu yaradır

Qrupun işində parlamentin bütün fraksiya və deputat qruplarının, Mərkəzi Seçki Komissiyasının, həmçinin seçki məsələləri ilə məşğul olan ictimai təşkilatların nümayəndələrinin iştirakı nəzərdə tutulur. D.Araxamiya vurğulayıb ki, işçi qrupun iclasının tarix və vaxtı elan olunacaq.

Qeyd edək ki, rəsmi Moskva Volodimir Zelenskini qeyri-legitim prezident hesab edir. Buna səbəb kimi, onun dövlət başçısı seçildiyi müddətin başa çatması göstərilir. ABŞ Prezidenti Donald Tramp da Ukraynada prezident seçkilərinin keçirilməli olduğunu bildirib. Onun sözlərinə görə, Ukrayna rəsmiləri yeni seçkilərin keçirilməsindən yayınmaq üçün müharibə məsələsindən istifadə edirlər.

Nəzərə alaq ki, Ukrayna qanunvericiliyinə əsasən müharibə şəraitində seçkilərin keçirilməsi təxirə salınır. Lakin bu təzyiqlər qarşısında rəsmi Kiyev seçkilərin keçirilməsi üçün tədbirlər görməyə hazırlaşır. Ukrayna Prezidenti Zelenski prezident seçkilərini keçirməyə hazır olduğunu bəyan edib. Zelenski müharibənin onun "kreslodan yapışması" səbəbindən uzandığını iddia edənləri "tamamilə qeyri-adekvat" adlandırıb. Bununla belə, o, hesab edir ki, seçkilərin təhlükəsizliyinin təmin olunması və hərbi vəziyyət şəraitində seçki keçirilməsini qadağan edən qanunvericiliyin dəyişdirilməsi tələb olunur: "Seçkilər iki amildən asılıdır: təhlükəsizlik və qanunvericilik. Təhlükəsizlik - səsvermənin mümkün olması üçün əsas şərtdir. Məhz buna görə seçkilər müvəqqəti işğal olunmuş ərazilərdə keçirilə bilməz". Onun sözlərinə görə, Ukrayna beynəlxalq müşahidəçilər və xaricdə səsvermə ilə ədalətli və şəffaf seçkilər keçirə bilər. "Xaricdə çox sayda ukraynalının olması səbəbindən proses daha mürəkkəb olacaq, lakin XİN artıq bu məsələnin həlli üzərində işləyir. Bütün vətəndaşların, xüsusilə də cəbhədəki hərbçilərin səs vermək imkanına malik olması vacibdir. Bu, dövlətin təmin etməli olduğu əsas hüquqdur. Seçkilərin təhlükəsizliyi məsələsi beynəlxalq tərəfdaşlarla, o cümlədən ABŞ ilə müzakirə olunur. Mümkün variantlardan biri - ən azı, seçki dövründə atəşkəs və ya müharibənin bitməsidir", - deyə Zelenski əlavə edib.

## Kiyev seçki təhlükəsizliyinə zəmanət istəyir



## Putinin seçki tələbi...

Yeri gəlmişkən, Rusiya Prezidenti Putin bu günlərdə ilin yekunları ilə bağlı keçirdiyi mətbuat konfransında ölkəsində yaşayan Ukrayna vətəndaşlarının da seçkidə iştirak hüququndan bəhs edib. O, Ukraynada mümkün prezident seçkilərinin təhlükəsizliyini təmin etmək barədə düşünməyə hazır olduğunu deyib. Putinin sözlərinə görə, Rusiya seçkilər zamanı təhlükəsizliyi təmin etmək üçün Ukrayna ərazisinin dərinliklərinə zərbələr endirməyəcək. Ancaq Rusiya liderinin bir şərti var: "Əgər seçkilər keçirilərsə, Rusiyada yaşayan ukraynalılar üçün Rusiya ərazisində səsvermənin təşkil edilməsini tələb edirik". Görünür, Putin ümid edir ki, Rusiyada yaşayan ukraynalıların səsi hesabına Ukraynada prezident kürsüsündə Rusiyayönümlü şəxs oturacaq. Təsadüfi deyil ki, o, hazırda Rusiyada 5 milyondan 10 milyona qədər Ukrayna vətəndaşının yaşadığını göstərən məlumatlara istinad edib. Rusiya liderinin bu tələbinə rəsmi Kiyev hələ münasibət bildirməyib. Əgər həqiqətən sözügedən tələb yerinə yetirilsə, Zelenskini çətin vəziyyət gözləyəcək.

Bütün bunların fonunda Zelenski Rusiya Silahlı Qüvvələrinin 25 dekabr - Milad günü Ukraynaya qarşı genişmiqyaslı hücum həyata keçirə biləcəyinin anonsunu verib. Dövlət başçısı qeyd edib ki, ABŞ və Almaniya Milad atəşkəsinin elan olunmasını dəstəkləyib, lakin Moskva bundan imtina edib: "Rusiya deyir: "Milad atəşkəsi olmayacaq". Mən bu siqnallardan sonra kəşfiyyatımızın gücləndirilməsini tapşırdım. Biz başa düşürük ki, məhz bu günlərdə onlar kütləvi zərbələr endirə bilərlər".

## Ekspert: Hazırda Ukraynada demokratik seçkilərin keçirilməsi qeyri-mümkündür

Mövzu ilə bağlı qəzetimizə açıqlama verən Konstitusiya Araşdırmaları Fondunun rəhbəri Əliməmməd Nuriyev bildirib ki, işğala məruz qalan və aktiv hərbi əməliyyatlar aparılan ölkədə azad və demokratik, beynəlxalq standartlara uyğun seçkilərin keçirilməsi qeyri-mümkündür. İlk növbədə, Ukraynanın Konstitusiyasında ölkədə hərbi vəziyyət şəraitində seçkilərin keçirilməsinin, sərbəst toplaşma azadlığının və s. məhdudlaşdırılması nəzərdə tutulur. Belə bir şəraitdə icra hakimiyyəti orqanları fövqəladə səlahiyyətlər çərçivəsində fəaliyyət göstərirlər. Onun sözlərinə görə, bu vəziyyət təkcə Ukraynaya aid deyil. Bir çox ölkələrin qanunvericiliyində belə hallar öz əksini tapır. "Burada təhlükəsizlik əsas şərtdir. Heç kim təminat verə bilməz ki, seçki günü Ukrayna ərazisi, seçki məntəqələri raketlərlə hücuma məruz qalmayacaq. Digər tərəfdən, işğal və aktiv hərbi əməliyyatlar şəraitində seçkilərdə bərabərhüquqlu iştirak hüququ, azad rəqabət mümkün deyil.

Nəzərə alaq ki, milyonlarla ukraynalı müharibə səbəbindən xarici ölkələrdə məskunlaşıblar. Onların xaricdə səsvermənsini təmin etmək texniki və hüquqi baxımdan çətindir",- deyə Ə.Nuriyev söyləyib.

Ekspert diqqətə çatdırıb ki, dünya təcrübəsində də aktiv hərbi əməliyyatların aparılması zamanı seçkilərin təxirə salınmasına dair kifayət qədər faktlar var: "Məsələn, İkinci Dünya müharibəsi zamanı Böyük Britaniyada və ABŞ-da seçkilər təxirə salınıb. Eləcə də, Avropa ölkələri də müharibələr zamanı seçki keçirməyiblər. Belə bir halda, bu gün hansısa beynəlxalq dairələr tərəfindən Ukraynada prezident seçkilərinin keçirilməsini tələb etmək doğru deyil".

**N.BAYRAMLI**

# Yüz ilə sığmayan gün

## Çingiz Aytmatovun "Gün var əsrə bərabər" romanı haqqında

**əvvəli ötən saylarımızda**

Susuz çöllərə göydən bərəkət yağanda qonşular bunu bayrama çevirirlər, selləmə yağışın altında oynağa çıxırlar. Yedigey Abutalıbın üç yaşlı oğlu Ermeki qucağından yerə qoymur ki, birdən uşaq çala-çökəyə düşüb boğular, Abutalıb da onun kiçik qızı Şərafəti boynuna mindirir. Yalnız şıdırğı yağışın altında Yedigey qəfil duyuq düşür ki, Zərifəyə bir ayrı gözlə baxır:

"Onlar beləcə yüyürür, uşaqları əyləndirirdilər. Ermek Yedigeyin qucağında atılıb-düşür, ağzına yağış dolanda sifətini onun boynuna qısırdı. Bu mənzərə elə təsirliydi ki, oğullarının Yedigey əmisinin qucağında belə sevindiyi üçün Abutalıbla Zərifənin minnətdarlıqla parıldayan baxışları Yedigeyin gözündən yayınmadı. Kuttubayevgilin yağışın altında düzəltdikləri bu oyun elə Yedigeylə qızlarının da ürəyindəndi. Yedigey özündən asılı olmayaraq Zərifənin gözəlliyinə fikir verdi. Yağış onun siyah tellərini çöhrəsinə, boyun-boğazına, çiyinlərinə dağıtmışdı, qüdrətdən axan su onun cavan və şux təni boyu tökülərək mina gərdəninə xüsusi gözəllik verir, şümşad qollarını, budlarını və yalın ayaqlarının baldırlarını adamın gözünə soxurdu. Gözləri şən bir ötkəmliklə parıldayır, inci dişləri sevinclə ağarırdı".

Fəqət bu məsud, dinc günlər uzun sürmür, 1953-cü il girər-girməz - yanvar ayının 5-də Abutalıb həbs olunur. Fevralın axırlarında xəbər gəlir ki, günahsız məhbusun təcridxanada ürəyi partlayıb. Bu müddətdə iki balaca oğlu hər gün qatar ayağına çıxıb onun yolunu gözləyir. Zaman o zamandır ki, Stalinin ölümünə sanılı günlər qalıb. Qazanqapın gətirdiyi qara xəbəri Zərifəyə heç kim çatdıra bilmir, qərara gəlirlər ki, qadın Kumbel stansiyasına gedib ərinin ölüm kağızını rəisdən şəxsən özü alsın. Zərifəni tək buraxmırlar, guya xəbərdən xəbərsizmiş kimi Yedigey də onunla gedir. Zərifə qara kağızı alandan sonra stansiyanın böyründəki bağçada oturub hıçqıra-hıçqıra ağlayır, Yedigey yanında durub onun kədərinə qarovul çəkir. Radiodan gələn ağır matəm musiqisinin ardı-arası kəsilmir, camaat elə bilir ki, qərib yolçular rəhbərin ölümünə ağlayırlar.

Qayıdanbaş onlar sərnişin daşıyan sürət qatarına minirlər, bu qatar Boranlı kimi kiçik dayanacaqlarda saxlamır. Ancaq bu dəfə saxlayacaq. Boranlıya çatanda Yedigey stop-kranı çəkib qatarı dayandırır. Qatarda böyük çaxnaşma, qalmaqal yaransa da, adını belə qoyur ki, guya yoldaş Stalinin vəfatı münasibətiylə sərnişin qatarını Boranlı razyezdində matəm əlaməti olaraq saxlayıb. Əslində isə bu, onun zamanı dayandırmaq, hərəkəti dondurmaq, Zərifənin yanında duyduğu hüznlü sevinci, kosmik kədəri əbədiyyətə köçürmək cəhdidir.

Ancaq fələyin çarxının stop-kranı yoxdur, zaman xoşbəxt anları da qara günlərin gözünə qatıb üyüdür. Yedigey azıb-təzmiş Qaranərin sorağına gedəndə Zərifə balalarını da götürüb Boranlıdan həmişəlik çıxır. Axtalanmamış dəvəni qınamalı deyil, yiyəsi kimi o da özünə pasiban axtarır. Qayıdıb Abutalıbın yurdunu boş görən Yedigey Allaha asi düşüb hirsini Qaranərin üstünə tökür, dəvəni amansızcasına döyür, heyvan işgəncəyə dözməyib yiyəsini qarın içiylə süryür. Qaranər Yedigeyin, özü demişkən, süd qardaşı, şüuraltı məni, alter-eqosudur. Dəvəni döyməklə Yedigey əslində öz cismini cəzalandırır, orta əsr xristian rahiblərinin tək yasaq istəyini, azğın tamahını, ayıb ehtirasını qırmanclayır. Qazanqapsa onun ikinci məni, könül qardaşı, özünə baxan gözüdür. Bax elə həmin qardaş onu başa salır ki, ağıllı Zərifə bu qəfil gedişiylə özünü də, onu da, onun cəfakeş, qəlbitəmiz halalı Ukubalanı da, üstəgəl cəmi Boranlı camaatını böyük bir töhmətdən, rüsvayçılıqdan qurtarıb.

***

Yerdənkənar sivilizasiyanın dəvətiylə "Paritet" kosmik gəmisini tərk eləyən astronavtlar işıq sürətiylə on bir saatdan sonra Günəş sistemindən çıxırlar. Meşəlidöş planetinin Cazib adlı öz günəşi var, həm də bizim Günəşdən çox-çox böyükdür. Bu planetdə bir sutkanın uzunluğu bizim vaxtla iyirmi səkkiz saatdır. Yuxarıdan baxanda Meşəlidöş Yeri xatırladır, eynən bizim planet kimi atmosfer buludlarıyla əhatə olunub. Buranın dağları, təpələri, yamacları yaşıllıq içindədir. Çayları, dənizləri, çölləri də bizimkilərə bənzəyir. Adamları orta hesabla yüz otuz-yüz əlli il ömür sürürlər, hətta iki yüzü haqlayanlar da olur. Planetin on milyarddan artıq əhalisi var. Meşəlidöş sakinləri iqlimi tənzimləməyi də öyrəniblər, hava axınına, suyun axarına təsir göstərməyi bacarırlar. Onların fəzasında Ay yoxdur.

Dövlət deyilən anlayışdan onlar xəbərsizdirlər, müharibənin, silahın nə olduğunu bilmirlər, pul-para tanımırlar. Onların bütün həyatı tamam başqa əsaslar üzərində qurulub. Kosmonavtların Yerə göndərdikləri mesajda belə deyilir:

"Onlar müharibəni mübarizə vasitəsi kimi rədd edərək elə bir kollektiv planetar şüur səviyyəsinə çatıblar ki, çox güman, bu sivilizasiya Kainat mühitinin ağılkəsən hüdudlarında ən qabaqcıl sivilizasiyadır...

Meşəlidöşlülər bilirlər ki, Kainatın onlar üçün çox uzaq olan bir guşəsində Yer planeti var: onlar yer sakinləriylə təmasa girməyi çox istəyirlər. Bu, təkcə adi maraq hissi deyil, onların fikrinə görə, bu, hər şeydən əvvəl şüur fenomeninin təntənəsi naminə, təcrübə mübadiləsi naminə, kainatdakı intellekt sahiblərinin yeni ruhi və zehni inkişafı naminədir...

İşıq sürətiylə uçan aparatları olduğuna görə onlar elə indinin özündə də bizim planetə gələ bilərdilər. Ancaq yer sakinlərinin razılığı, dəvəti olmadan bunu eləmək istəmirlər. Onlar Yerə çağırılmamış qonaq kimi soxulmaq fikrində deyillər. Buna görə də bizə işarə vururlar ki, tanışlıq üçün çoxdan münasib imkan axtarırlar. Bizim kosmik stansiyalarımız uzunmüddətli orbitlərə çıxmış obyektlərə çevriləndən sonra onlara aydın olub ki, görüş vaxtı yaxınlaşır, həm də ilk addımı onlar atmalıdırlar... Meşəlidöşlülər bizdən xahiş eləyirlər "Paritet" rabitə sistemi vasitəsilə sizə çatdıraq ki, Yer əhli nə vaxt münasib bilərsə, onlar bizim planetə gəlmək arzusundadırlar..."

***

Qazanqapı Ana-Beyit qəbiristanlığında basdırmaq baş tutmur. Məlum olur ki, kosmodrom ətrafında qapalı zona yaradıblar, məzarlıq da tikanlı məftillərin o üzündə qalıb. Yedigey dəfnə rüsxət almaq üçün çox çalışıb-çabalayır, gözətçiylə, növbətçi zabitlə danışıqlar aparır, ancaq onun cəhdləri bir fayda vermir, qorunan əraziyə onları heç vəchlə buraxmırlar. Mərhumu Ana-Beyitə yaxın bir yerdə torpağa tapşırırlar. Yedigey lazımi ayinləri yerinə yetirir, dua oxuyur, dəstəmaz alıb cənazə namazı qılır, özünün də Qazanqapın yanında dəfn olunmasını vəsiyyət eləyir. Bunun ardınca biz onun sonuncu daxili monoloqunu, Allahla söhbətini dinləyirik:

"...Amma bilmirəm mənim Yasinimi kim oxuyacaq. Bu cavanlar nə Allaha inanırlar, nə dua-sənə bilirlər. Axı Allahın olub-olmadığını heç kim bilmir, bilməyəcək də. Kimi deyir - var, kimi deyir - yox. Mən sənin varlığına inanmaq istəyirəm, deyirəm ki, sən mənim məqsəd-məramımdasan. Mən dualarla sənə üz tutduğum vaxt əslində sənin vasitənlə özümə müraciət edirəm, buna görə də bu məqamda başıma gələn fikirlər, elə bil ki, sənin öz fikirlərindir, ey bizi yaradan! Məsələnin məğzi də bundadır! Bu cavanlarsa belə şeyləri fikirləşmirlər, dualara da xor baxırlar. Bəs ölüm ayağında onlar özlərinə, ya başqalarına nə deyə biləcəklər? Bu cavanlara yazığım gəlir, onlar öz insanlıq sirlərinə necə yetə biləcəklər ki, onların heç birinin heç olmasa xəyalən Allah olmaq dərəcəsinə yüksəlməsi üçün heç bir imkanları yoxdur? Əstəğfürullah, keç günahımdan küfr söylədiyimçün. Onlardan heç biri allahlıq dərəcəsinə yüksələ bilməyəcək, bu halda sən özün də daha mövcud olmayacaqsan. Əgər insan sənin timsalında üryində özünü hamının dərdinə qalan Allah saymasa, onda, ilahi, sən özün də olmayacaqsan... Amma mən istəməzdim sən tamam yox olub gedəsən".

**davamı növbəti sayımızda**



**F.Uğurlu**

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Bakmətbuat” MMC - 0124314313
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**



# Şuşakənd, Xanyurdu, Qırmızı Bazar, Məmmədbəyli...

## Bu kəndlərə köç karvanı yola salındı












Vətən Müharibəsində qazandığımız qələbə yalnız döyüş meydanında deyil, həm də məcburi köçkünlərimizin yurdlarına geri dönüşü üçün yeni bir dövrün başlanğıcını qoydu. Onlar bir zamanlar məcbur qalıb tərk etdiyi torpaqlarına qayıdırlar. Demək olar ki, hər gün köç karvanları yola salınır. Bu, müharibədən sonrakı bərpa prosesinin sadəcə bir başlanğıcıdır. Qarşıda uzun bir yol, həyata keçiriləcək möhtəşəm layihələr var. Ancaq hər bir addım Azərbaycanın bütövlüyü və ərazi vahidliyinin qorunması üçün atılan mühüm bir addımdır. Bu baxımdan köç karvanlarının yola salınması yeni gələcəyimizi formalaşdırır.

Azərbaycanın şimal-qərb bölgəsində yerləşən Xocalı, Xocavənd və Zəngilan rayonları 30 ildən artıq bir müddətdə işğal altında olub. Lakin son bir neçə ildir ki, işğaldan azad edilmiş digər rayonlarımız kimi böyük və müsbət dəyişiklərə məruz qalıb. Bu rayonlar tarixi və mədəni irsimizin önəmli bir parçası olmaqla yanaşı, həm də keçmiş məcburi köçkünlərin acı taleyinin simvoluna çevrilib.

Dünən Xocalı rayonunun Şuşakənd və Xanyurdu kəndlərinə, Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsinə və Zəngilan rayonunun Məmmədbəyli kəndinə köç karvanı yola salınıb. Köç edənlər respublikanın müxtəlif bölgələrində, əsasən yataqxanalarda, sanatoriyalarda və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdir.

Bu mərhələdə Xocalı rayonunun Şuşakənd kəndinə 20 ailə (83 nəfər), Xanyurdu kəndinə 12 ailə (50 nəfər), Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsinə 37 ailə (169 nəfər), Zəngilan rayonunun Məmmədbəyli kəndinə isə 29 ailə (147 nəfər) köçürülüb.

Xocalı rayonunun Şuşakənd kəndinə, cəmi - 20 ailə (83 nəfər), o cümlədən:
Bakı şəhərindən - 7 ailə (23 nəfər);
Abşeron rayonundan - 5 ailə (20 nəfər);
İsmayıllı rayonundan - 3 ailə (13 nəfər);
Ağsu rayonundan - 2 ailə (13 nəfər);

### Üç kənd, bir qəsəbə...

Ucar rayonundan - 1 ailə (7 nəfər);
Gəncə şəhərindən - 1 ailə (5 nəfər);
Ağdaş rayonundan - 1 ailə (2 nəfər).
- cəmi 113 ailə (424 nəfər) köçürülüb.

Xocalı rayonunun Xanyurdu kəndinə, cəmi - 12 ailə (50 nəfər), o cümlədən:
Goranboy rayonundan - 3 ailə (14 nəfər);
Bakı şəhərindən - 3 ailə (9 nəfər);
Gəncə şəhərindən - 2 ailə (10 nəfər);
Bərdə rayonundan - 2 ailə (7 nəfər);
Abşeron rayonundan - 1 ailə (6 nəfər);
Oğuz rayonundan - 1 ailə (4 nəfər).
Cəmi 123 ailə (431 nəfər) köçürülüb.

Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsinə, cəmi - 37 ailə (169 nəfər), o cümlədən:
Beyləqan rayonundan - 19 ailə (89 nəfər);
Bakı şəhərindən - 14 ailə (64 nəfər);
Füzuli rayonundan - 3 ailə (11 nəfər);
Abşeron rayonundan - 1 ailə (5 nəfər).
Cəmi 122 ailə (513 nəfər) köçürülüb.

Zəngilan rayonunun Məmmədbəyli kəndinə, cəmi - 29 ailə (147 nəfər), o cümlədən:
Bakı şəhərindən - 20 ailə (105 nəfər);
Abşeron rayonundan - 7 ailə (36 nəfər);
Sumqayıt şəhərindən - 2 ailə (6 nəfər).
Cəmi 132 ailə (653 nəfər) köçürülüb.

Doğma yurdlarına qayıdan sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildiriblər. Onlar, həmçinin torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə təşəkkür edib, bu yolda canlarından keçən şəhidlərimizə Allahdan rəhmət diləyiblər.

### Ümid yolu: Yeni həyat, yeni üfüqlər...

İllərdir ki, başqa şəhər və rayonlarda məskunlaşan, öz evlərindən didərgin düşən insanlar, bir gün həmin torpaqlara qayıdacaqlarını bilirdilər. Keçmiş məcburi köçkünlər iki hissi - sevinc və həyəcanı birlikdə yaşayır. Sevinclərinin, həyəcanlarının həddi-hüdudu yoxdur. Xalqımız heç zaman ümidini itirməmişdi. Bir zamanlar dağılan ailələr bir araya gəlir, köhnə xatirələr canlanır və yeni həyatlar qurulur, yeni üfüqlər açılır. Bütün bunlar, Azərbaycanın gücünü, xalqın sarsılmaz iradəsini və mübarizəsini bir daha təsdiq etmiş oldu.

*Yeganə BAYRAMOVA*

# Ənənələrimizi qorumalıyıq!

**“Vağzalı”mız niyə yoxa çıxarılır?**

Hər bir xalqın mədəniyyəti onun adətləri və ənənələri ilə bağlıdır. Bu adətlərin qorunması və gələcək nəsillərə ötürülməsi, bir xalqın öz kimliyini qorumasının əsas şərtidir. Lakin zaman keçdikcə, sosial dəyişikliklər və qloballaşma ilə bir çox milli ənənələr və adətlər təəssüf ki, yox olmağa başlayır. Bu prosesin ən açıq və kədərli nümunələrindən biri də son zamanlar toylarımızda “Vağzalı”nın çalınmamasıdır.

“Vağzalı” Azərbaycan toyunun rəmzidir. Əvvəllər gəlini aparmaq üçün qız evinə gələn oğlan adamları qız evinin qapısında, həyətində bir saata qədər rəqs edər, şənlənərdi. Elə ki, “Vağzalı” səsləndi, deməli, artıq gəlinin ata evindən çıxmağının zamanı çatıb. Bu mərasim də ağsaqqalların nəzarəti ilə həyata keçirilirdi.

“Vağzalı” sədaları hər kəsi ötən illərə qonaq edər, ailə qurduğu anı xatırladar. Elə buna görə də “Vağzalı” səslənəndə gözlərdən yaş axar. Çünki “Vağzalı” həm də bir qızın ata evini tərk etməsi musiqisi kimi qəbul olunub.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği” istiqaməti üzrə hazırlanmışdır**

### Avropa musiqiləri “Vağzalı”mızı əlimizdən alıb

Mövzu barədə fikirlərini “Yeni Azərbaycan”la bölüşən sosioloq Sahib Altay bildirib ki, qədimdən bəri məclislərdə ifa olunan toy havalarının yerini indi iki günə populyarlıq qazanan, sözlərinin mənası adamı xeyli düşünməyə vadar edən mahnılar tutub. Sosioloq bəzi toylarda “Vağzalı” ənənəsinin yoxa çıxmağından narahatlığını da ifadə edib: “Artıq bir neçə toyda görmüşəm ki, vağzalı səslənmir. Xarici mahnılar, məsələn, “Mendelson marşı” ilə toya daxil olurlar. Bir neçə müddətdir ki, “Vağzalı”nı da unutduqlarımızın ardınca göndərmişik. İndi həm qızı, həm də oğlanı evdən çıxarmağın başqa bir dəbi yaranıb. Restoranlarda keçirilən toylar isə demək olar ki, “Vağzalı”nın qəniminə çevrilib. İndi əksər gənc restorana Avropa musiqiləri ilə girməyi üstün tutur. Heç nə anlamadığımız bu musiqilər “Vağzalı”mızı əlimizdən alıb. Hansı ki, uzaq məsafədən belə eşitdiyimiz bu musiqi həmişə bizi riqqətə gətirib, saflığı, təmizliyi, müqəddəsliyi ehtiva edib. Bu musiqi özündə adət-ənənələrimizi, ağsaqqal nəsihətini, ağbirçək tövsiyəsini yaşadıb. Lakin çox təəssüf ki, bugünkü gənclər arasında bu musiqini sevənlərin sayı gündən-günə azalır”.



### Müasirlik kimi təqdim olunur, amma...

S.Altayın sözlərinə görə, gənclərimizin ənənələrimizdən uzaqlaşması narahatedici haldır: “Bu gün cəmiyyətdə mənəvi aşınma prosesi müşahidə olunur. Təbii ki, bütün bunlar ciddi və narahatedici bir problemdir. Gənclər daha çox müasir musiqi sədaları altında ailə qurmaq istəyirlər. Bu, müasirlik kimi təqdim olunur, amma əslində ənənələrimizdən uzaqlaşmaq deməkdir. Amma milli adət-ənənəmizi qorusaq, çox yaxşı olar”.

Sosioloq vurğulayıb ki, ailə dəyərlərinin qorunması üçün məktəblərdə, universitetlərdə və ailələrdə bu istiqamətdə maarifləndirmə işləri gücləndirilməlidir: “Ənənələrimizi yaşatmaq və gəncləri bu dəyərlərə yaxınlaşdırmaq üçün hər birimiz bu prosesə öz töhfəmizi verməliyik”.

### Tamamilə unudulan toy adətlərimiz

S.Altayın sözlərinə görə, elə toy adətlərimiz var ki, onlar tamamilə unudulub: “Məsələn, “çörəküstü” mərasimi. Bu mərasim kənd yerlərində toy çörəyi bişiriləndə həyata keçirilirdi. Belə ki, qonşu, qohumlar təndirdə çörək bişirilən zaman şirniyyat xonçaları ilə çörəküstünə gələr, ev sahibinə gözaydınlığı verərdilər. Təndir başında toy çörəyindən kəsib yeyər, şirniyyatlarla çay içər, yeri gələndə çörəyin bişirilməsinə, daşınmasına kömək edərdilər.

Hazırda kəndlərimizdə təndir salıb ailəsi üçün çörək bişirən qadınlar da çox az sayda qalıb. İllərdir ki, kənd camaatı çörək sexlərinə sifariş etməklə çörək tələbatını ödəyir. Özünə əziyyət verib təndir salmaq, qol çırmayıb xəmir hazırlamaq artıq ötən illərdə qalıb.

Tamamilə unudulan mərasimlərdən biri də “parçabiçimi”dir. Bu mərasim həm şəhər, həm də kənd yerlərində toydan bir-iki gün əvvəl qız evində keçirilərdi. Belə ki, oğlan evi qız üçün alınan geyim, bəzək, zinyət əşyalarını gətirər, həyətdə qurulan mağarda və ya evdə keçirilən mərasimə dəvət olunanlara göstərərdi. Qız evi yemək verər, çay paylayar, qonaqlar isə nəlbəkiyə nəmər qoyardılar. Bu, sonrakı illərdə dəyişilmişdi. Qonaqlar nəməri artıq nəlbəkiyə deyil, dəftərə adlarını yazdıraraq verirdilər. Bu gün isə həmin mərasim heç bir kənd və şəhərdə qalmayıb”.

### Günahkar kimdir?

Sosioloq qeyd edib ki, bu günkü toylarımızda, ümumiyyətlə, gündəlik həyatımızda var olan, az da olsa aktuallığını qoruyan ənənələrimiz çox gözəldir, təqdirəlayiqdir. Unudulanlar, tamamilə sıradan çıxanlar isə bizim günahımızdır: “Bəzən bu günahı zəmanəyə yükləməyi sevirik. Lakin zaman nə etsin ki? Bu məsələdə müqəssir özümüzük. Adətləri unuda-unuda illəri illərə verən bizik...

Təəssüf ki, gözəl adətlərimizin bəzisi sıradan çıxıb, onları qoruyub saxlaya bilmədik. Bir zamanlar toylarımızdakı adətlərə həsədlə tamaşa edən Avropaya özümüzü oxşada-oxşada bu həsəd hissini aradan qaldırdıq. Bizim də toylarımız onlarınkı kimi sönükləşdi, solğunlaşdı. Çünki adət-ənənələr toyların rəngi, işığı, təmtərağı idi. Lakin biz bu təmtərağı tamamilə başqa şeylərdə görməyə başladıq...”.

*Yeganə*

# Oyuncaqların da rəqəmsal pasportu olacaq

## Aİ oyuncaqlarla bağlı təhlükəsizlik qaydalarını sərtləşdirir



Avropa İttifaqı oyuncaqlarla bağlı təhlükəsizliyi gücləndirən yeni Oyuncaq Təhlükəsizliyi Reqlamentini qəbul edib.

AZƏRTAC xəbər verir ki, yanvarın 1-dən qüvvəyə minəcək sənəd uşaqların zərərli kimyəvi maddələrdən daha effektiv qorunmasını nəzərdə tutur. Yeni qaydalara əsasən, təhlükəli olduğu müəyyən edilən maddələr, o cümlədən hormon sistemini pozan, allergiya yaradan və ya orqanlara zərər verən kimyəvi birləşmələri olan oyuncaqlar dərhal qadağan ediləcək. Qadağa yüksək davamlılığına görə ətraf mühitdə uzun müddət parçalanmayan, insan sağlamlığı üçün risk yaradan sintetik kimyəvi birləşmələri (perflor və poliflor alkil maddələri (PFAS) də əhatə edir. Bundan başqa, xərçəng, genetik zədələnmə və reproduktiv sağlamlığa təhlükə yaradan maddələrə dair mövcud məhdudiyyətlər də sərtləşdirilir.

Sənədin icrasında rəqəmsal nəzarət mexanizmləri genişləndiriləcək. Aİ bazarına çıxarılan bütün oyuncaqlar təhlükəsizlik və uyğunluq məlumatlarını əks etdirən rəqəmsal məhsul pasportu ilə təchiz olunacaq. Onlayn satılan və Aİ-yə idxal edilən oyuncaqlar üzrə bu məlumatlar gömrük orqanları tərəfindən də yoxlanıla biləcək. Yeni qaydalar 2030-cu il avqustun 1-dən tam tətbiq ediləcək.

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4826**
**Sifariş: 2619**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova